www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 dekabr 2018-ci il Çərşənbə axşamı № 277 (7166) Qiyməti 60 qəpik

**Xəbər**

## Ali məktəblərə qəbul qaydaları dəyişdi: yeniliklər nə vəd edir...

yazısı səh.7-də

**Gündəm**

### Neft bazarını kim qarışdırır - maraqlı faktlar



**İlham Şaban:** “2019-cu ildə neftin qiyməti 60-65 dollardan aşağı olmayacaq”

yazısı səh.5-də

### “The Guardian” qəzetinin məqaləsinə deputatlardan sərt təpki

yazısı səh.8-də

### Qida Təhlükəsizliyi Agentliyinin adından istifadə edən şəxslərə ağır cəza

yazısı səh.6-da

### ABŞ-da seçkilərə ikinci müdaxilə - siyahıda Rusiya, Çin və İran var

yazısı səh.10-da

### Ermənistan hökumətinin çətin günləri başlanır

yazısı səh.11-də

### Amerika Suriyadan çıxırmı - kürdlər çətin durumda

yazısı səh.12-də

### “Ermənilər Paşinyandan üz çevirə bilər” - politoloq

yazısı səh.10-da

### “Azərbaycan və Türkiyə Qərb üçün Ermənistandan daha vacib dövlətlərdir” - politoloq

yazısı səh.12-də

### Azərbaycan turizminin 1 ildəki nailiyyətləri

yazısı səh.13-də

### Hansı işi hansı ayda görək - il tövsiyəsi

yazısı səh.15-də

### Tüstü ilə bağlı monitorinqlər “Torqovı”ya da keçəcək

yazısı səh.4-də

# PUTİN BU İL ƏN ÇOX ƏLİYEV VƏ ƏRDOĞANLA GÖRÜŞÜB - QARABAĞA ŞANS PƏNCƏRƏSİ

Azərbaycan və Türkiyənin Rusiya üçün önəmi artır, iki qardaş ölkə liderinin Putin yanında söz sahibliyi güclənir; Ermənistanın yeni rəhbərliyi yeni və sərt reallıqla üz-üzə...



yazısı səh.9-da

# ƏƏSMN-in kasıblara ölüvay heyvanlar verməsinin pərdəarxası

Vətəndaşların özünüməşğulluq proqramının icrasındakı qanunsuzluqlardan şikayətləri səngimir

yazısı səh.14-də



*İsgəndər Həmidov:*

### “Siyasətçi öz yerinə gənc kadr hazırlaya bilmirsə, o, siyasətçi deyil”

yazısı səh.4-də



*Mirvari Qəhrəmanlı:*

### “Cahangir Hacıyevin siyasi məhbus kimi tanınması mümkün deyil”

yazısı səh.6-da



*Əli Həsənov:*

### “Prezident İlham Əliyev son 15 ildə yeni Azərbaycanın Qurucusu kimi özünü təsdiq edib”

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 277 (7166) 25 dekabr 2018



## Əlvan və qara metal tullantılarının qəbulu ilə bağlı tələblər sərtləşdirilir

**Azərbaycanda əlvan və qara metal tullantılarının qəbulu ilə bağlı tələblər sərtləşdirilir. "Report" xəbər verir ki, bununla bağlı "İstehsalat və məişət tullantıları haqqında" Qanunda dəyişiklik edilir.**

Qanunun 12-ci (Əlvan və qara metal tullantılarının idarə olunması və onların özgəninkiləşdirilməsinə tələblər) maddəsinə əsasən, Hüquqi və fiziki şəxslər tərəfindən əlvan və qara metal tullantılarının idarə olunması və onların özgəninkiləşdirilməsi Azərbaycan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Maddəyə edilən əlavədə qeyd olunub ki, əlvan və qara metal tullantılarının qəbulu fəaliyyətini yalnız qara və əlvan metalların əridilməsi və bunun nəticəsində ərintilərin dövlət reyestrində təhlükə potensiallı obyektlər olaraq qeydiyyatdan keçmiş sahibkarlıq subyektləri həyata keçirə bilər. Əlvan və qara metal tullantılarının qəbulu, uçotu, radiasiya və partlayış təhlükəsizliyi baxımından müayinədən keçirilməsi qaydaları və onların əldə edilmə mənbəyinə dair tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq edilir. Əldə edilmə mənbəyi məlum olmayan, qanunsuz yolla əldə edilməsi müəyyən edilən, fiziki şəxslərdən şəxsiyyəti təsdiq edən sənədlər tələb olunmadan, habelə radiasiya və partlayış təhlükəsizliyi baxımından müayinədən keçirilmədən əlvan və qara metal tullantılarının qəbul edilməsi, həmçinin qara və əlvan metalların əridilməsi və bunun nəticəsində ərintilərin alınması obyektləri təhlükə potensiallı obyektlər olaraq dövlət reyestrində qeydiyyatdan keçirilməyən sahibkarlıq subyektləri tərəfindən bu növ tullantıların qəbulu fəaliyyətinin həyata keçirilməsi məsuliyyətə səbəb olur.

Layihədə bildirilib ki, bu, əlvan və qara metal tullantılarının qəbulu fəaliyyətinin tənzimlənməsi bu sahədə nəzarətin və şəffaflığın artırılması məqsədilə hazırlanıb.

Belə ki, əlvan və qara metal tullantılarının qəbulunu həmin metalların emalı (əridilməsi) ilə məşğul olan və təhlükə potensiallı obyektlər olaraq qeydiyyatdan keçmiş sahibkarlıq subyektləri həyata keçirə biləcəklər. Əlvan və qara metal tullantılarının qəbulu, uçotu, radiasiya və partlayış təhlükəsizliyi baxımından yoxlanması müvafiq qaydalara əsasən həyata keçiriləcək.

Bununla bağlı İnzibati Xətalar Məcəlləsində də dəyişiklik edilir. Dəyişikliklə cəzalar müəyyənləşib.

Dəyişiklik layihəsi Milli Məclisin dekabrın 28-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq.

# "Sənaye müəssisələrinin Bakıdan kənara çıxarılması nəzərdə tutulur" - Eldar Əzizov

**"Bakının yeni baş planı hazırlanır, şəhərdə sıxlığın azaldılması üçün müvafiq tədbirlərin görülməsi, sənaye müəssisələrinin paytaxtdan kənara çıxarılması nəzərdə tutulur".**




Bunu "Möhtəşəm quruculuq: dünən, bu gün, sabah" mövzusunda keçirilən konfransda çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib.

E.Əzizov qeyd edib ki, son 15 il ərzində Bakıda çox böyük quruculuq işləri həyata keçirilib, paytaxtın siması tamamilə dəyişib, gözəl memarlıq üslubunda tikilən bir şəhərə çevrilib.

**İcra başçısı bildirib ki, Bakının prezident İlham Əliyevin layihələrində daim böyük yeri olub:** "Görülən işlər nəticəsində Bakı dünyanın ən böyük şəhərlərindən birinə, investorlar üçün ən cəlbedici məkanlardan birinə çevrilib, son bir ildə şəhərə 12 milyard manat investisiya qoyulub. 2005-ci ildən Bakıda sənaye istehsalı 4 dəfə artıb".

**E.Əzizov söyləyib ki, ötən illər ərzində Bakıda avtomobillərin sayı 2 dəfə artaraq 663 minə çatıb:** "Prezident İlham Əliyevin apardığı işlər nəticəsində Bakıda sahibkarlıq inkişaf edir. 2005-ci ildə Bakıda 40-a yaxın hotel olubsa, hazırda bu rəqəm 4 dəfə artıb. Bakı keçmiş sovet məkanında 5 ulduzlu hotellərin sayına görə ilk yerlərdə qərarlaşıb. Təkcə bu il Bakını 2 milyondan artıq turist ziyarət edib və proqnozlara görə bu rəqəm artacaq".

**İcra başçısı deyib ki, 15 ildə Bakıda intensiv tikinti işləri aparılıb və bu gün də tikinti ilə bağlı müraciətlərin sayı artmaqdadır:** "Bu, Bakının inkişafından xəbər verir. Beynəlxalq agentliklərin reytinqinə görə turistlər üçün Bakı memarlıq abidələri ilə yadda qalan 5 şəhərdən biri hesab edilir".

**O vurğulayıb ki, bu gün Bakıda salınan parklar böyük əraziləri əhatə edir, meqaparklar yaradılır:** "Paytaxtımız dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrilib. Bakı öz tarixində heç zaman belə inkişaf görməyib. Bütün bunların əsasında İlham Əliyev fenomeni dayanır. Ölkəmiz və paytaxtı İlham Əliyevin rəhbərliyi ilə böyük nailiyyətlər əldə edəcək".

## Bakıda qadın sərnişini döyərək pulunu alan taksi sürücüsü saxlanıldı

**Bakıda qadın sərnişini döyərək pulunu alan taksi sürücüsü saxlanılıb.**

DİN-dən «Trend»ə verilən məlumata görə, dekabrın 22-də saat 3 radələrində Abşeron rayon sakini olan bir qadın "28 Mall" ticarət mərkəzinin qarşısında "Opel" markalı avtomobilə sərnişin qismində əyləşərək Xocəsən qəsəbəsi ərazisinə gedəcəyini bildirib. Sürücü onu aldadaraq Sabunçu qəsəbəsi ərazisinə aparıb, avtomobildə döyərək 680 manatını alıb.

Sabunçu RPİ 12-ci PŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən həmin qəsəbə sakini Fərhad Əliyev saxlanılıb.

## Gürcüstanda 53 yaşlı qadın qripdən ölüb

**Gürcüstanın Acarıstan Muxtar Respublikasında 53 yaşlı qadın qrip virusundan ölüb.**

"Report"un Gürcüstan bürosunun verdiyi xəbərə görə, qadın bir neçə gün Batumi Respublika Xəstəxanasında müalicə olunub.

Pasiyent dekabrın 17-də xəstəxanaya yerləşdirilib. O, qripin ağır formasına yoluxub. İlkin məlumata əsasən, qadına "A" tipli virus diaqnozu qoyulub.

Acarıstanın İctimai Sağlamlıq Mərkəzinin məlumatına görə, muxtar respublikada 3 H1N1 virusu ("donuz qripi") faktı təsdiqlənib. Mərkəz əhalini qripin ilk simptomları olan kimi dərhal həkimə müraciət etməyə çağırıb.

Hazırda Gürcüstanda 100 min nəfər əhaliyə 221 qripə yoluxma halı düşür.

# Uşaq bağçalarının ərzaq təminatına nəzarət artırılacaq



**Uşaq bağçalarının ərzaq təminatına nəzarət daha da artırılacaq. Bakı Şəhər İcra Hakimiyyətindən (BŞİH) «Trend»ə verilən məlumata görə, Bakı Şəhər Məktəbəqədər Təhsil və Uşaq Evləri İdarəsinin tabeliyində olan müəssisələrin ərzaq təminatı hər zaman gündəlik nəzarətdə saxlanılır və ərzaqla bağlı daxil olan hər bir müraciət ciddi şəkildə araşdırılır:**

"Elə ötən həftə bağçalara verilən ərzağın keyfiyyəti ilə bağlı daxil olmuş məlumat da dərhal BŞİH-də təşkil olunmuş komissiya tərəfindən yerində araşdırılıb, keyfiyyəti şübhə doğuran ərzaqlarin geri qaytarılaraq yeniləri ilə əvəz olunması təmin edilib. İdarədən bildirilib ki, bağçalara köhnə, keyfiyyətsiz ərzaq verilməsindən söhbət belə gedə bilməz, yalnız keyfiyyəti şübhə doğuran ərzaqlar dərhal dəyişdirilib

Komissiyanın bütün rayonlardakı uşaq bağçalarında apardıqları yoxlamalarda ciddi nöqsanlar və problemlər aşkar edilməmişdir. Məktəbəqədər təhsil müəssisələrinin rəhbərlərinə bağçalara verilən ərzaqların keyfiyyətinin ciddi nəzarətdə saxlanılması, hər hansı problem yaranarsa dərhal məlumat verilməsi tapşırılmış, bildirilmişdir ki, uşaqlar hər zaman ən keyfiyyətli ərzaqlarla təmin olunmalı və bu məsələlərə çox ciddi nəzarət edilməlidir. Bu işlərdə ictimaiyyət nümayəndələri və ilk növbədə valideynlərin köməyi və məlumatları əsas götürüləcəkdir. Ümumiyyətlə isə 2018-ci il ərzində şəhərin məktəbəqədər təhsil və uşaq evlərində ərzaq təminatı ilə bağlı hər hansı problemlər yaşanmamış və məsələnin süni surətdə şişirdilməməsi tövsiyə olunur".

BŞİH qeyd edir ki, eyni zamanda Bakı şəhərindəki məktəbəqədər təhsil müəssisələrinin ərzaq təminatını həyata keçirən qurumlara Yeni il ərəfəsində bağçalara verilən ərzaqların çeşidlərinin artırılması ilə bağlı müvafiq tapşırıqlar verilib.



## Bakıda maşın aşdı, 5 nəfər xəsarət aldı - sürücünün qayınanası öldü

**Ramanada yol qəzası baş verib. DİN-dən «Trend»ə verilən məlumata görə, dekabrın 23-də saat 14 radələrində Bakı şəhər sakini Sübhan Məmmədov idarə etdiyi "NAZ Lifan" markalı avtomobili aşırıb. Nəticədə sürücü və 5 sərnişini xəstəxanaya yerləşdirilib, onlardan qayınanası M.İsmayılova orada ölüb.**

Sabunçu Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.



## Rusiyada azərbaycanlı sevdiyi qıza görə dostunu öldürdü

**Rusiyanın Volqoqrad vilayətinin Kalaç-na-Don bölgəsində qətl hadisəsi baş verib. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bununla bağlı Volqoqrad İstintaq Komitəsinin Baş İstintaq İdarəsinin nümayəndəsi Vasili Qluxov məlumat verib.**

Onun sözlərinə görə, iki dost işdən sonra içki qəbul edib və aralarında mübahisə düşüb: "Azərbaycanlı öz dostuna sevgilisindən narazılığını bildirib. Bu zaman dostu həmin qızı təhqir edib və bildirib ki, qızların heç biri sadiq deyil. Bu zaman azərbaycanlı onunla mübahisəyə başlayıb və əlavə edib ki, onun sevgilisi belə deyil. Dostu isə həmin qızla intim əlaqədə olduğunu deyib.

Bu sözlərdən sonra qəzəblənən azərbaycanlı dostuna bıçaqla ölümcül zərbə vurub və bıçağı yuyaraq, sevdiyi qızın yanına gedib. Qız azərbaycanlını ona sadiq olduğuna və xəyanət etmədiyinə inandıra bilib. Bundan sonra binanın həyətindəki mağazaya daxil olan azərbaycanlı satıcıdan polis çağırmasını xahiş edib", - V.Qluxov deyib.

Faktla bağlı araşdırmalar davam edir.

Azərbaycanlını 15 ilədək həbs cəzası gözləyir.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Putin İlham Əliyevə zəng etdi

**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Bu barədə Azərbaycan prezidentinin mətbuat xidməti məlumat yayıb.

Məlumatda bildirilib ki, Vladimir Putin prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.



Söhbət zamanı qeyd edilib ki, 2018-ci il Azərbaycan-Rusiya dostluq əlaqələrinin tarixində çox məhsuldar bir il olub, dövlət başçılarının qarşılıqlı səfərləri, beynəlxalq tədbirlər çərçivəsində çoxsaylı təmaslar əlaqələrimizi daha da yüksək səviyyəyə qaldırıb. Prezidentlər öz əminliklərini bildiriblər ki, 2019-cu ildə də ikitərəfli münasibətlərimizdə müsbət dinamika davam etdiriləcək və Azərbaycan-Rusiya strateji tərəfdaşlıq əlaqələri bundan sonra da inkişaf edəcəkdir.

Rusiya prezidenti Vladimir Putin İlham Əliyevə həmçinin təbrik məktubu ünvanlayıb.

**Təbrikdə deyilir:**

"Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz həmvətənləriniz arasında və xaricdə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi nüfuz qazanmısınız. Dövlətlərimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə Sizin şəxsi töhfəniz əvəzsizdir.

Bizim aramızda yaranmış münasibətləri yüksək qiymətləndirirəm. Sizinlə konstruktiv dialoqun və sıx birgə işin davam edəcəyinə ümid bəsləyirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, firavanlıq və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram. Ailənizə səmimi salamlarımı çatdırmağınızı xahiş edirəm".



## Azərbaycan prezidenti Türkiyədə "İlin dövlət başçısı" seçildi

**Prezident İlham Əliyev Türkiyədə səmimi, işgüzar, uğurlu və Türkiyə dövlətinin dostu meyarlarına görə "İlin dövlət başçısı" seçilib.**

Bu barədə AzərTAc-a Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) sədri Bilal Dündar məlumat verib.

O bildirib ki, sözügedən seçim Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasına bağlı olan 16 bölgədə 145 vətəndaş cəmiyyəti təşkilatı tərəfindən aparılıb.

Bilal Dündar deyib ki, "İlin dövlət başçısı" mükafatı prezident İlham Əliyevə 2019-cu ilin yanvar ayında təqdim olunacaq.

# "Prezident İlham Əliyev son 15 ildə yeni Azərbaycanın Qurucusu kimi özünü təsdiq edib"

## Əli Həsənov: "Onun təşəbbüsü ilə reallaşdırılan irimiqyaslı enerji layihələri sayəsində Azərbaycan Qərbin enerji təhlükəsizliyində mühüm rol oynayır"

**Prezident İlham Əliyev son 15 ildə yeni Azərbaycanın Qurucusu kimi özünü təsdiq edib.**

"Trend"in məlumatına görə, bunu Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "İlham Əliyev. On beş illik prezidentlik dövrünün uğur salnaməsi" kitabının və eyniadlı filmin təqdimat mərasimində çıxışı zamanı deyib.



Əli Həsənov

**Ə.Həsənov qeyd edib ki, ümummilli lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin Xilaskarı idisə, onun davamçısı olan İlham Əliyev son 15 ildə bu dövləti inkişaf etdirib, yeni idarəçilik modeli ortaya qoyub və yeni Azərbaycanın Qurucusu kimi özünü təsdiq edib:**

"İlham Əliyev 15 illik prezidentlik dövründə qlobal və sistemli strateji düşüncə tərzinə malik olduğunu nümayiş etdirə bilib. Həm ölkə daxilində gördüyü işlər, həm də yürütdüyü xarici siyasət, onun təşəbbüsü ilə gerçəkləşən əməkdaşlıq platformaları, həyata vəsiqə alan beynəlxalq və regional əhəmiyyətli layihələr on illər, yüz illər sonra da Azərbaycana, Azərbaycan vətəndaşlarına fayda gətirəcək, dövlətimizin qüdrətlənməsinə xidmət edəcək. Bu təşəbbüslər sayəsində açıq dənizlərə birbaşa çıxışı olmayan Azərbaycan regionun nəqliyyat-logistika mərkəzi statusu qazanıb, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin Azərbaycandan keçməsi təmin edilib. Bu, cənab Prezidentin qeyd etdiyi kimi, beynəlxalq yükdaşımaları uğrunda rəqabətdə Azərbaycana önə çıxmağa, ölkənin qeyri-neft sektorunun inkişafında mühüm töhfə verməyə imkan verib. Onun təşəbbüsü ilə reallaşdırılan irimiqyaslı enerji layihələri sayəsində Azərbaycan Qərbin enerji təhlükəsizliyində mühüm rol oynayır. Azərbaycan Avropanın enerji təminatında bu gün yeganə alternativ mənbədir, bəzi ölkələrin enerji təchizatının 30-40 faizi Azərbaycan vasitəsilə həyat keçirilir".

**O vurğulayıb ki, prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təmin edilmiş sabitlik Azərbaycanı təhlükəsiz, geosiyasi problemlər vəd etməyən cəlbedici ixrac mənbəyinə, enerji və nəqliyyat qovşağına çevirir:** "Beləliklə, Azərbaycan qitənin enerji və nəqliyyat xəritəsini yenidən dizayn etməkdədir. İlham Əliyevin təməlini qoyduğu və gerçəkləşdirdiyi layihələr - transmilli neft-qaz kəmərləri, qitələrarası nəqliyyat dəhlizləri, istifadəyə verilmiş kommunikasiya xətləri, liman və tərsanələr, hava limanları, çoxsaylı mədəni, tibbi obyektlər, elm, təhsil sahəsində həyata keçirdiyi ümummilli proqramlar, yetişdirdiyi sağlam gənclik hələ uzun illər Azərbaycanın rifahını, dövlətimizin davamlı inkişafını təmin edəcək".

**Ə.Həsənov bildirib ki, son 15 ildə prezident İlham Əliyevin regionların inkişafını, gənclərin təhsilini, insan kapitalına dövlət sərmayəsinin qoyulmasını, vətəndaşın sosial haqlarını və sosial müdafiəsini önə çəkib, vətəndaşların sağlamlığının qorunması ilə bağlı konseptual siyasətə, milli mənəvi dəyərlərin qorunmasına, yeni nəsillərin öz tarixi irsinə sədaqət ruhunda böyüdülməsinə xüsusi diqqət yetirib, Azərbaycan, Ermənistan istisna edilməklə, bütün qonşu ölkələrlə qarşılıqlı faydalı əlaqələr qurub:**

"İlham Əliyev olduqca praqmatik və realist siyasi liderdir. O, həyata keçirdiyi siyasətin nəticələrini əvvəlcədən hesablayır, aydın konturlarını cızır. Azərbaycan dövləti proqramlarla idarə olunan, proqnozlaşdırıla bilən bir siyasət yürüdür. İlham Əliyev hansı hədəfləri müəyyən edirsə, hansı vədləri verirsə, proqramlaşdırıb həyata keçirir. Formalizm, populizm, qeyri-real vədlər, cari, situativ hədəflər naminə dövlətin enerjisinin sərf edilməsi, gündəlik siyasi tələblər haqqında düşünmək İlham Əliyev idarəçiliyinə yad bir xüsusiyyətdir".

**Prezidentin köməkçisi deyib ki, dövlətimizin başçısının yürütdüyü məqsədyönlü sosial siyasət daim əhalinin rifah halının yüksəldilməsinə hesablanıb:** "Bu siyasət xalq tərəfindən geniş dəstəyə malikdir. Yerli və xarici fərqli qurumlar tərəfindən aparılan monitorinqlər, keçirilən rəy sorğuları belə dəstəyin mövcudluğunu təsbit edir. Builki prezident seçkilərinin nəticələri isə xalqın İlham Əliyev siyasətinə yüksək etimadının nümayişi oldu. Davos İqtisadi Forumunun apardığı sorğuya əsasən, "Siyasətçilərə ictimai etimad" adlanan kateqoriyada Azərbaycan dünyada 20-ci yeri tutur. Bu, İlham Əliyevin şəxsinə və iqtidarına xalqın böyük etimadının beynəlxalq etirafı kimi qəbul edilməlidir".

**Ə.Həsənov qeyd edib ki, prezident İlham Əliyev olduqca qətiyyətli və güclü siyasi iradəsi olan bir liderdir:** "İlham Əliyev Azərbaycan naminə planlaşdırdığı siyasəti, proqram və layihələri həyata keçirmək üçün böyük əzm, titanik iradə nümayiş etdirir, bəzən qeyri-mümkün görünənləri gerçəyə çevirməyi bacarır. Azərbaycan xalqının maraqlarını beynəlxalq müstəvidə necə qətiyyətlə müdafiə etdiyi təqdim olunan kitabda və filmin kadrlarında da öz əksini tapıb. Onun rəhbərliyi ilə icra olunan strateji kurs Azərbaycanın beynəlxalq arenada nüfuzunun və rolunun durmadan yüksəldilməsinə yönəlib".

**PA rəsmisi əlavə edib ki, İlham Əliyevin yüksək siyasi mədəniyyəti qonşularla münasibətdə də özünü büruzə verir:** "Bu və ya digər təşviq və təzyiqlərə baxmayaraq, indiyə qədər Azərbaycan hər hansı bir dövlətə qarşı platsdarm rolu oynamayıb. Ermənistanda baş verən son hakimiyyət dəyişiklikləri və dövlət aparatının iflic olduğu məqamlarda belə, Azərbaycan tərəfi fürsətcil davranışdan yayınıb. Nəticədə bu gün Azərbaycan sülh, əməkdaşlıq və dialoq platforması kimi tanınır, beynəlxalq etimadın artmasına öz töhfələrini verir. Təsadüfi deyil ki, 2017-ci ildən etibarən Bakıda ABŞ və Rusiya, NATO və Rusiya hərbi rəhbərliyinin görüşlərinin keçirilməsi ənənəvi hal alıb, Rusiya ilə Türkiyə arasında gərginliyin azaldılmasına Azərbaycanın verdiyi dəstək artıq hər iki ölkənin müxtəlif səviyyəli siyasiləri tərəfindən dilə gətirilib".

Yeni MÜSAVAT
N 277 (7166) 25 dekabr 2018

# Bu gün “Müxalifətin zirvəsi”dir

## İsgəndər Həmidov: “Siyasətçi öz yerinə gənc kadr hazırlaya bilmirsə, o, siyasətçi deyil”

**Dekabrın 25-də saat 12:00-da KXCP qərargahında “Müxalifətin zirvəsi” keçiriləcək. Görüşün mövzusu “Azərbaycanda ictimai-siyasi vəziyyət və müxalifətin vəzifələri”dir. Dəyirmi masaya 37 partiya sədri dəvət olunub.**



**“Müxalifət daxilində durumun bu qədər bərbad olduğunu təxmin etmirdim”**

Artıq dəvətlilərdən AXCP, REAL və Azad Demokratlar Partiyasının tədbirdə iştirak etməyəcəyi dəqiqləşib. Bəzi siyasətçilərin hətta siyahıda adlarının yer aldığı sıradan narazı qaldıqları üçün zirvə görüşündə iştirak etməyəcəkləri barədə xəbərlər yayılıb. Gənc siyasətçilərin, yeni qüvvələrin tədbirə dəvət olunmalarından narazı qalanların da olduğu bildirilir.

**“Müxalifətin zirvəsi”nin təşəbbüskarı olan AMDP sədri, sabiq daxili işlər naziri İsgəndər Həmidov “Yeni Müsavat”a açıqlamasında dəyirmi masada təxminən 30 dəvətlinin iştirak edəcəyini söylədi:** “Zirvə görüşü ilə bağlı görüşlərimiz normal keçdi. Dəvətə yox deyənlər normal şəkildə bunu bildirdilər. Qalanları çox razılıqla iştirak edəcəklərini söylədilər. İlk vaxtlar çoxlu suallar ortaya çıxdı. Birinci sual ondan ibarət idi ki, gözlənilən növbədənkənar parlament seçkiləri ilə bağlıdırmı. Mən də qəti şəkildə bunun seçkiyə heç bir aidiyyətinin olmadığını söylədim. Seçki mühitini dəyişmək üçün dəyirmi masada müzakirələr gedə bilər. Amma birmənalı şəkildə bəyan edirəm ki, burada nə parlament seçkiləri, nə də gələcəkdə prezident seçkiləri ilə bağlı birlik yaradılacaq. Sadəcə, yaranmış durum və müxalifətin bundan çıxış yollarını müzakirə edəcəyik. Gələn ilin ilk yarısında parlament seçkilərinin keçirilə biləcəyi barədə xəbərlər dolaşır və kimsə düşünürsə ki, o seçkilərdə iştirak edəcək və bu kampaniya ilə ona dəstək verəcəyik, çox yanlış fikirdədir. Biz ondan ötrü yaranmırıq. İndiyə qədər çoxsaylı seçki blokları olub və onların taleyi ortadadır. Dəyirmi masaya 30 partiyanın qatılacağını gözləyirəm. Ədalət Partiyasının sədri İlyas İsmayılov xəstədir, ona şəfalar diləyirəm. Özü xəstə olsa da, onun partiyasının nümayəndəsi görüşdə iştirak edəcək. İlyas müəllim öz böyüklüyünü, ağsaqqallığını göstərdi, xeyir-duasını da verdi. Tədbirdə iştiraka yox deyən üç partiya var. Qalanları müsbət cavab veriblər və dəyirmi masada iştirak edəcəklərini düşünürük. Müsavat Partiyasından hələ yekun cavab almamışıq. AXCP sədri Əli Kərimli açıqlama verərək iştirak etməyəcəklərini söylədi. Onun mövqeyinə hörmətlə yanaşırıq. REAL-la əlaqə yaratmaq istədik, amma əlaqəyə çıxmaq istəmədilər. Əlaqə yaratmaq istəməmələri yox cavabıdır, mən belə düşünürəm. Sülhəddin Əkbər də iştirak etməyəcəyini bildirib”.

**Sabiq nazir müxalifət daxilindəki durumdan da gileyləndi:** “Açığı, əvvəlcədən bilirdim ki, vəziyyətimiz elə də yaxşı deyil. Amma bu dərəcədə bərbad olduğunu bilmirdim. Diqqət edin, görün necə xırda söhbətlər gedir, filankəs niyə siyahıda var, filankəs niyə beşincidir, mən 27-ciyəm. Onlara başa sala bilmədim ki, biz müxalifətin geniş dəyirmi masasını keçirmək istəyirik. Burada yaxşı da, pis də olacaq. Sənin də, mənim də bəyənmədiyim ola bilər. Bütün bunların hamısını bir kənara qoyub, müzakirələri birlikdə aparmağı dəfələrlə təklif etdim. Çox gərgin danışıqlar keçdi. Təsəvvür edin ki, 5 saat danışıq aparmışam, evə gəlmişəm, namazımı qılmışam, həmin adamlar məni təzədən müzakirəyə çağırıblar. Gedib təzədən 4 saat da müzakirə aparmışıq. Bu ay mənim üçün çox gərgin oldu. Mənə xəstəliyimlə əlaqədar çox danışmaq olmazdı. Amma day buna məcbur idim. Əvəz Zeynallının qəsdən belə siyahı hazırladığı yönündə xoşagəlməyən fikirlər səslənir. Bunlar tamamilə yanlışdır. Oturmuşuq çayxanada, çay içə-içə kimlər yada düşdükcə yazmışıq. Keçirdiyim görüşlərdə dedim ki, əgər günahkar varsa, o da İsgəndər Həmidovdur. Bütün məsuliyyəti boynuma götürdüm. Açığı, fikirləşməzdim ki, kimsə siyahıda neçənci yerdə olduğunun söhbətini apara bilər. Hətta görüşlərin birində siyahını necə hazırlamaqla bağlı fikirləri soruşdum. Biri dedi ki, əlifba sırası ilə hazırlayaq. Dedim ki, o zaman əlifbada ilk gələn A hərfidir və filankəsi ora yaz. Buna etiraz edərək dedi ki, o sovetdən qalan, familiya öndə yazılan əlifba sırasıdır. Dedim ki, o zaman adla siyahı hazırlayaq. Kimin birinci olacağını dedim. Buna da etiraz etdi. Mən də əsəbləşib dedim ki, indi siz nə istəyirsiniz? Belə xırda söhbətlər çox oldu”.

**İ.Həmidov müxalifət daxilindəki yeni qüvvələrin, gənclərin dəvəti normal qarşıladıqlarını bildirdi:** “Yaşlı nəsil gəncləri qəbul etmir. Onu dedim ki, əvvəl-axır meydan gənclərə veriləcək. Onlar qabağa getməlidirlər. 70-80 yaşında ikiəlli yapışıb siyasətin qarşısında durmağın nə mənası var ki? Onsuz da heç nə edə bilmirsən. Hər zaman demişəm, yenə də deyirəm. Siyasətçi öz yerinə gənc kadr hazırlaya bilmirsə, o, siyasətçi deyil. Bu onu xatırladır ki, filankəs olmasa, dövlət və ya təşkilat batar. Gənclərə qarşı hazırda qısqanclıq var. Bir şeyi deyim ki, ”Müxalifətin zirvəsi" ilə bağlı gənclərin heç biri yaşlılara qısqanclıq etmədi. Məsələn, gənc siyasətçi, yeni qüvvə sayılan AĞ Partiya başqanı Tural Abbaslı oradadır. Həmçinin yeni qüvvələrdən Sahib Kərimli də orada var. Bunlar və orada olan digər gənc, yeni qüvvələrin heç biri yaşlılara qısqanclıqla yanaşmadılar, heç bir iddia ortaya qoymadılar. Açığı, mən istəyirəm ki, onların ideyası olsun. Ürəkdən istərdim ki, iddiaları böyük olsun və gələcəkdə bunu həyata keçirsinlər. Gənclərə qısqanclıqla yanaşmağın nə mənası var?"

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Tüstü ilə bağlı monitorinqlər “Torqovı”ya da keçəcək

## ETSN: “Hazırda Nizami küçəsində sakinlərin şikayətlərinə uyğun olaraq yoxlamalar aparılır”

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi havanı zəhərləyən restoranlara qarşı monitorinqini davam etdirir. Redaksiyamıza müraciət edən sakinlər bildiriblər ki, hazırda Bakının mərkəzində yerləşən Nizami küçəsində olan ictimai-iaşə obyektlərində də havaya kifayət qədər tüstü, zəhərli maddələr buraxılır. Lakin nazirlik həmin ictimai-iaşə obyektlərinə qarşı tədbir görmür. Sakinlərin fikirlərinə münasibət almaq üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentinin direktoru Ramal Bağırovla əlaqə saxladıq. R. Bağırov “Yeni Müsavat”a bildirdi ki, nazirlik həmin ictimai-iaşə obyektlərində də monitorinqlər aparır:**



“Hazırda daha çox iri restoranlarda yoxlamalar aparırıq. Bu restoranlardan havaya daha çox tüstü, zəhərli maddə buraxılır. Lakin eyni zamanda Nizami küçəsində də fəaliyyət göstərən ictimai-iaşə obyektlərində monitorinqlər aparırıq. Belə ki, sakinlərin şikayətləri əsasında həmin ictimai-iaşə obyektlərinə baxış keçirib, müvafiq tədbirləri görürük. İri restoranlarla bağlı işlərimiz başa çatdıqdan sonra xırda ictimai-iaşə obyektlərinə də nəzarəti gücləndirəcəyik”.

Nazirlikdən öyrəndik ki, Bakı və Abşeron yarımadasında 500-ə yaxın ictimai-iaşə obyektində monitorinqlər aparılır. Məlum olub ki, onlardan 210-u norma daxilində fəaliyyət göstərir. İkisi isə - Sabunçu rayonundakı “Luvr Palace” və “Təbrik” restoranları standartlara cavab verməyib. Səbəb isə istismar qaydalarına düzgün riayət edilməməsidir.

Bu günə olan nəticəyə görə, 250-yə yaxın ictimai-iaşə obyektində standartlara uyğun modul tipli qurğu quraşdırılıb. Eyni zamanda 50-yə yaxın ictimai-iaşə obyektlərində faktiki quraşdırma işləri aparılır. İkisinin - Yasamal rayonu ərazisindəki “Qızıl Balıq”, Binəqədi rayonu ərazisindəki “Özkardeşler” restoranlarının fəaliyyəti dayandırılıb. 17 iaşə obyektinin fəaliyyətinin dayandırılması üçün məhkəmə orqanları qarşısında vəsatət qaldırılıb.

Bildirilib ki, Sumqayıt, Gəncə, Şəki, Goranboyda da reydlər və monitorinqlər aparılır. Bakının 12 icra hakimiyyətində sahibkarlarla görüş keçirilib. Onlara problemlər izah edilib və bu problemlərin aradan qaldırılması üçün sentyabr ayının 1-nə qədər zaman verilib.

Xəbərdarlığa əhəmiyyət verməyən ictimai-iaşə obyektləri İnzibati Xətalar Məcəlləsinin 233.1 maddəsinə əsasən cərimə edilirlər. Belə ki, vəzifəli şəxslər 2500-4000, hüquqi şəxslər 8500-12500 manat məbləğində cərimə olunurlar. Sonrakı proseslərdə isə məhkəmə orqanları qarşısında vəsatət qaldırılır.

❑ **Əli RAİS, “Yeni Müsavat”**




# Türkiyədə rusiyalı terrorçu saxlanıldı

**Türkiyənin Adana vilayətində keçirilmiş antiterror əməliyyatı nəticəsində Rusiya vətəndaşı saxlanılıb.**

“Trend”in məlumatına görə, saxlanılan şəxs Çeçenistan sakinidir.

Adı açıqlanmayan terrorçunun “Həyat Təhrir əş-Şam” terror təşkilatının mənsubu olduğu və Yeni il ərəfəsində Türkiyədə terror aktları planlaşdırdığı bildirilib.

Bundan başqa, onun Suriyada döyüşlərdə iştirak etdiyi və 2017-ci il yanvarın 1-də İstanbulda gecə klublarının birində terror aktı törətmiş Əbdülqədir Maşaripovun yaxını olduğu deyilib.

# Neft bazarını kim qarışdırır - maraqlı faktlar

## İlham Şaban: “2019-cu ildə neftin qiyməti 60-65 dollardan aşağı olmayacaq”

**2018-ci ili dünya neft bazarında kəskin enmələrlə başa vurmaqdayıq. Qiymətlər 53-55 dollar arasında dəyişir və yaxınmüddətli dövrdə bu səviyyədən yuxarı qalxmasına dair gözləntilər demək olar ki, yoxdur.**

**“Bloomberg HT”yə danışan Beynəlxalq Enerji Agentliyinin (IEA) icraçı direktoru Fatih Birolun dediyinə görə, neftin qiymətində kəskin bahalaşma gözlənilmir:** “Əvvəllər neftin qiymətini OPEC təyin edirdi. Artıq bu dəyişib və yeni, ikinci aktor var. Bu da ABŞ-dakı şist neftidir. Bu neft 8 il əvvəl çıxarılmağa başlanılıb. Səkkiz ildə ABŞ-da şist neftinin səviyyəsi İraqın hasilatının iki mislinə bərabər olub. Artıq yalnız Vyanada qəbul olunan qərarlara deyil, ABŞ-da şist nefti istehsalının necə artacağına baxmaq lazımdır. 2019-cu ildə və sonrakı dövrdə iki böyük aktor, eləcə də geosiyasi qeyri-müəyyənliklə əlaqədar böyük volatillik baş verəcək. 2019-cu ildə ciddi qeyri-sabitlik görməyə davam edəcəyik”(AzərTAc).

**“OPEC+ ölkələri lazım gəlsə, saziş müddətini artıra, yaxud hətta neft istehsalını daha da azalda bilər”. Bunu isə OPEC prezidenti, Birləşmiş Ərəb Əmirliklərinin enerji naziri Süheyl əl Məzrui bildirib:** “”Nəzərdə tutulan hasilat azalması ətraflı şəkildə araşdırılmışdı, lakin səmərəli olmasa, əvvəllər etdiyimiz kimi istədiyimiz vaxt OPEC-in növbədənkənar iclasını çağıra bilərik".

Nazir vurğulayıb ki, OPEC+ formatının müddətini daha altı ay uzatmaq zərurəti yaranarsa, bu həyata keçiriləcək, hasilatı azaltmaq lazım gəlsə, həmişə müzakirə edib sanballı qərar əldə edə biləcəklər. O, bəzi üzv ölkələrdə hasilatın təbii azalması baş verdiyindən OPEC-in saziş şərtlərini həqiqətən də artıqlaması ilə yerinə yetirə biləcəyini diqqətə çatdırıb.

Xatırladaq ki, dekabrın 7-də OPEC+ 2019-cu ilin yanvar ayından etibarən yarımillik müddətə bütün iştirakçı ölkələrin gündəlik hasilatı 1,2 milyon barel azaltmaq qərarını vermişdi. Bunun 800 min bareli OPEC üzv ölkələrinin, qalan 400 min bareli də qeyri-OPEC ölkələrinin payına düşür.

OPEK+ tərəfindən qəbul olunan bu qərar bazara çox cüzi və qısamüddətli təsir göstərdi.

Bu günlərdə ABŞ-ın “Delaware Basin” yatağındakı nəhəng tapıntılar qlobal neft bazarı ilə bağlı hesablamaları dəyişib.

ABŞ rəsmilərinin məlumata görə, Texas və Nyu-Meksiko ştatları arasındakı ərazidə “Delaware Basin” adlanan məkanda 46.3 milyard barel neft, 8 trilyon kubmetr qaz və 20 milyard barel təbii maye qaz ehtiyatları aşkarlanıb. Bu ağlasığmaz rəqəmlər dünya miqyasında ən nəhəng enerji yatağının məhz ABŞ-da olduğunu göstərir.

Beləliklə, ABŞ-ın məlum enerji resurslarının həcmi ikiqat artıb. Analitiklərin fikrincə, bu qədər neft və qazın mövcudluğu həm də Birləşmiş Ştatların enerji idxal edən ölkədən enerji ixrac edən ölkəyə çevrilməsini sürətləndirəcək və neftlə bağlı qərarlarda rolunu artıracaq.



Ötən il isə ABŞ-ın Texas və Luiziana ştatlarının cənubunda yerləşən “Bossier” və “Haynesville” sahələrində 8,61 trilyon kubmetr həcmdə təbii qaz və 4 milyard barel həcmdə neft ehtiyatı tapılıb.

Bu ilin yayında ABŞ neft hasilatına görə Rusiya və Səudiyyə Ərəbistanını arxada qoymağa nail olub. Hazırda bu ölkənin gündəlik neft hasilatı 11,8 milyon bareldən yuxarıdır. Analitik mərkəzlərin hesablamalarına görə, bu birinciliyi ABŞ gələn il ərzində də qoruyub saxlayacaq. Belə ki, hasilatın gələn ilin birinci rübündə 12,1 milyon barelə çatdırılacağı nəzərdə tutulur.

ABŞ-da son illərdə şiş neft istehsalında tətbiq olunan yeni texnologiyalar sayəsində maya dəyərini dəfələrlə azaltmağa nail olunub. Əgər 2014-cü ildə şiş neftin 55-60 dollar qiyməti zərərsiz hədd hesab olunurdusa, indi bu göstərici 20 dollara qədər endirilib.

Dünyanın həm də ən böyük neft istehlakçısı-benzin istehsalçısı olan ABŞ üçün qiymətlərin 50 dollar həddində olması məqbul hesab edilir. Buna görə də prezident Donald Tramp neftin bu həddən yuxarı qiymətinə qarşı sərt mübarizə aparmaqdadır.

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri, sahə üzrə mütəxəssis İlham Şaban bildirir ki, ABŞ-da yeni ehtiyatların kəşf olunması onların hasilata başlaması demək deyil:** “Yatağın kəşf olunması ilə orada hasilata başlanması arasında azı 2-3 il vaxt lazımdır. Yeni yataq, sadəcə, ABŞ-ın ehtiyatlarının artması baxımından maraqlıdır.

## “ABŞ-da neft yatağının aşkarlanması bazara heç bir təsir göstərmir”

Hazırda dünya neft bazarında qiymətlərin enməsinə təsir edən əsas amillərdən birincisi iki ən böyük hasilatçının - ABŞ və Rusiyanın durmadan istehsalı artırmasıdır. İkinci faktor bundan ibarətdir ki, dünya ümumi daxili məhsulunun 35 faizini istehsal edən iki ölkə - ABŞ və Çin arasında ticarət ziddiyyətləri baş verib və hələ də tam aradan qalxmayıb. Ümumilikdə bu ziddiyyətlər və digər sanksiyalar üzündən bütün dünyada iqtisadi artım sürəti azalıb. İstər Yaponiya, istər Cənubi Koreya və digər dünya ölkələri üzrə iqtisadi artım proqnozları azaldılıb. Dekabrın əvvəllərində ABŞ Federal Ehtiyatlar Sistemi ölkədəki iqtisadi artım proqnozunu 2,5 faizdən 2,3 faizə endirdi. ABŞ-dakı 0,2 faizlik azalma digər dünya ölkələri üçün 2-3 faizlik azalma deməkdir. Dünya üzrə iqtisadi artım sürətinin azalması enerjiyə tələbatı aşağı salır ki, bu da öz növbəsində neftə tələbatı azaldır".

**İ.Şaban bazarda qiymət artımına səbəb olacaq amillər kimi OPEK+ qərarını qeyd edir:** “Amma bu qərarın bazara təsiri bir neçə aya özünü göstərə bilər. Qərar yanvarın 1-dən qüvvəyə minir. Onun bazarlara real təsiri 3-4 aya hiss olunacaq - aprelin ortalarınadək. Bu da o zaman olacaq ki, hamı hasilatın azaldılması kvotasına tam əməl etsin. Bu da bir qədər çətin görünür. Məsələn, Rusiya hasilatı 282 min barel azaltmaq öhdəliyi götürüb, amma bu günlərdə məlum olub ki, onlarda qış aylarında hasilatı azaltmaq ciddi problemlərə səbəb ola bilər”.

**Mütəxəssis bütün təsir faktorları nəzərə alınmaqla, 2019-cu ildə neftin qiymətinin 60-65 dollardan aşağı olmayacağı qənaətindədir:** “Beynəlxalq mərkəzlərin heç birinin proqnozu 60 dollardan aşağı deyil. İndiyədək yalnız Rusiya Mərkəzi Bankı gələn il neftin qiymətinin 63 dollar olacağını qeyd edib. ABŞ investisiya bankları isə hətta 70-80 dollarlıq qiymət proqnozlaşdırırlar. Düşünürəm ki, təxminən martın əvvəllərində neftin qiymətlərində ilk korreksiyalar olacaq, bilinəcək ki, qiymət hansı tərəfə dəyişəcək”.

**❑ Dünya SAKİT, “Yeni Müsavat”**

---

# Qarabağ danışıqlarının formatı dəyişəcəkmi?..



**Hüseynbala SƏLİMOV**

**Növbədənkənar parlament seçkiləri də başa çatdı, il də artıq tamamlanmaq üzrədir, amma hamını düşündürən bir məsələyə - ötüşməkdə olan ildə İrəvanda baş verən proseslərin Dağlıq Qarabağ məsələsinə necə təsir edəcəyi hələ də açıq qalır.**

Əlbəttə, hamıya aydındır ki, əvvəlcə bu axmaq ölkədə hökumət qurulmalıdır və ən son xəbərlərdən də belə nəticə hasil olur ki, hazırda kabinetin strukturu ilə bağlı işlər aparılır, neçə nazirliyin olacağı, onların səlahiyyət sferaları müəyyənləşdirilir.

Hətta bu prosesin özü də sakit və hamar keçmir, sosial narazılıqlarla müşayiət olunur. Elə bu günlərdə ləğv olunmuş nazirliklərdən birinin əməkdaşlarının etiraz aksiyası keçirdiyi deyildi.

Əslində bütün bunlar gözlənilən idi, onlar “məxməri inqilab”ın ruhundan və ölkədə aparılmış sistem dəyişikliklərindən irəli gəlir.

Amma Ermənistandan cavab gözləyən ünvanlar var. Birincisi, Moskva İrəvandan öz sorğularına cavab almağa tələsir. Rusiya prezidenti V.Putin hətta özünün növbəti illik mətbuat konfransında belə N.Paşinyanı təbrik etməyi vacib bilmədi, halbuki o, formal şəkildə olsa da bunu edə bilərdi.

İndi söhbətlər gəzir ki, Paşinyan yaxın vaxtlarda Moskvaya səfər edəcək. Görünür, Kreml artıq onu “xalça üzərinə” dəvət edir.

Rusiyanın dövlət adamları, o cümlədən də ölkənin ən birinci şəxsləri - prezident Vladimir Putin və xarici işlər naziri Sergey Lavrov rəsmi açıqlamalarında İrəvandakı son proseslərin guya Moskva üçün heç bir dəyişiklik yaratmadığını və iki ölkənin MDB, KTMT və Avrasiya İqtisadi Birliyi çərçivəsindəki iş birliyinin və əməkdaşlığının davam etdiyini bildirirlər.

Amma ki, qətiyyən belə deyil, Kreml əhli nə qədər diplomatik etiket çərçivəsində qalmağa çalışsa da vəziyyət hətta göründüyündən də mürəkkəbdi, ortada ciddi anlaşılmazlıqlar var və bu anlaşılmazlıqların bir görüş, bir müzakirə ilə çözüləcəyini düşünməyin özü sadəlövhlük olardı, ona görə ki, lap bizim “O olmasın, bu olsun” kinokomediyasında deyilən kimi, qızın iki adaxlısı var; ABŞ-ın və cənab C.Sorosun uşaqları digər hamilərini də unutmayıblar və unuda da bilməzlər...

Kremlə sıx yaxınlığı olan politoloq S.Markov Rusiyanın hətta Paşinyanın indiki ətrafından belə “öz adamları”nı tapacağını desə də, xarici işlər naziri Lavrov da vaxtilə Paşinyanın parlamentdəki doqquz deputatı ilə də “işlədiklərini” (ona işarədir ki, o adamlar da bizimkilərdir!) gözə soxmağa cəhd etsə də, Moskva çaxnaşma içindədi, onun əsl adamları sayılan şəxslər parlamentdən tamam kənarda qalıb və hətta həbsdədirlər.

Odur ki, Kremlin Paşinyandan soruşmaq istədiyi çox mətləblər var və bu məqamlara yalnız sıx təmaslarda aydınlıq gətirmək olar.

O ki qaldı Azərbaycana, xüsusən də baş verənlərin Dağlıq Qarabağ müstəvisinə proyeksiyasına, kriminal Dağlıq Qarabağ klanının qalıqları problemlə bağlı ən kiçik detalları da diqqətdə saxlayır və onlardan siyasi qalmaqallar yaratmaq üçün yararlanmağa cəhd edirlər.

Məsələn, elə bu günlərdə Azərbaycanın xarici işlər nazirinin “Danışıqlarda müəyyən anlaşma var” deməsini Ermənistandakı müxalifət “Paşinyanın Dağlıq Qarabağı Bakıya satmağa hazırlaşması” kimi təqdim etdi, üstəlik, bu cür “ittiham”lar birinci dəfə deyil ki, səslənir. Bəli, Paşinyan Qarabağ klanına aid deyil, onun hətta Qarabağdakı müharibə ilə də hər hansı bağlılığı olmayıb, o, necə deyər, “müharibə köpəkləri” kimi təsnif edilən insanların kateqoriyasına daxil deyil. Bu səbəbdən də Koçaryan-Sarkisyan güruhu daim onun bu ögeyliyini gözə soxmağa, Qarabağ siyasi-hərbi teatrını Paşinyana qarşı yönəltməyə çalışırlar.

Amma son günlərdə Dağlıq Qarabağ prosesilə bağlı baş verən ən maraqlı məqam digər məsələdir. Dağlıq Qarabağın azərbaycanlı icması özünə yeni sədr seçdi: bundan sonra təşkilata gənc və həm də artıq yetərli dərəcədə təcrübəsi olan diplomat başçılıq edəcəkdir.

Məsələ dərhal maraq doğurdu: görən, bu, danışıqlar prosesinin formatının dəyişəcəyinə işarə deyil ki? Axı Paşinyan hər fürsətdə bəyan edir ki, danışıqlara Dağlıq Qarabağın erməni icması cəlb edilməlidir. Bir tərəfdən bunu həmişə belə başa düşmüşük ki, bu yolla Ermənistanın baş naziri Qarabağ ermənilərinin ona olan etimadını artırmaq istəyir.

Amma məsələ təkcə bunda deyil: ermənilər Dağlıq Qarabağdakı oyuncaq rejimi daim danışıqlar prosesinin əsas tərəflərindən birinə çevirməyə çalışıblar və bununla Ermənistanı “oyundan çıxaracaqlarını”, Dağlıq Qarabağdakı rejimi isə tanıdacaqlarını düşünüblər.

Odur ki, sayıqlığı artırmağa ehtiyac duyulur. Əlbəttə, azərbaycanlı icmasının fəaliyyətinin gücləndirilməsi faydalı işdir. Amma icmalar, o cümlədən Dağlıq Qarabağın erməni icması danışıqlarda ən yaxşı halda müşahidəçi və ya maraqlı tərəf kimi iştirak edə bilər, çünki ermənilərin münaqişənin təqdimatını dəyişdirməsinə qətiyyən yol verməmək olmaz.

Onlar illərlə ən müxtəlif prosesləri baş-ayaq, özlərinə sərf edən bir şəkildə təqdim etməyə alışıblar, amma ümid edirik, bu dəfə belə nömrə keçməyəcək...

Yeni MÜSAVAT
N 277 (7166) 25 dekabr 2018



# Saxta toyun hiyləgər bəyi

Samir SARI

**İndi dələduzluğa aid bir məhkəmə prosesindən hazırlanmış xəbərin bir abzasını iqtibas edirəm. Oxuyun, sonra söhbəti davam etdirərik.**

"Bir gün onun anası mənə dedi ki, qız tapım, yalandan toy edib pul yığmaq istəyirlər. Mən belə bir adam tapa bilməyəcəyimi dedim. Amma məsləhət verdim ki, gəlinsiz toy etmək olar. Dini toy adı ilə qızın iştirakı olmadan məclis təşkil edə biləcəklərini dedim. Ağıllarına batdı və razılaşdılar. Asif Ədliyyə Nazirliyində, polisdə tanıdığı hamını toya çağırmışdı. Restoranda ancaq kişilər idi. Anası, mən və daha 6 nəfər qadın yaxınları da orada idik. Amma biz restoranın ikinci mərtəbəsində oturmuşduq. Onlar toy edib pul yığdılar".

Bax, mən camaatımızın bu xasiyyətini sevirəm. (Əslində, türkün sözü, "huyunu" yazmaq istəyirdim, sonra qorxdum ki, leksikonumuzda olan bütün alınma sözlərə tolerant yanaşan, amma hansısa yazıda, statusda türk sözü görəndə hövllənən oxucular narahat olarlar).

Təsəvvür edin, adam evlənmək, ailə qurmaq, bir qadınla dinc, yanaşı yaşamaq istəmir, amma hiss edir ki, bu işdə pul var, ona görə də sırf pul toplamaq üçün yalandan evlənmək istəyir, axtarır, özünə ortaq olacaq "dələduz gəlin" tapmır, məcbur olub sırf dini toy edir - gəlinsiz, qadın qonaqlarsız.

Dələduzluğun beləsi yalnız komediya filmlərində ola bilərdi, amma bu, bizdə real olaraq baş verib.

Bu cür beyni olan adamlara "ütük adam"lar deyirlər. Onlar hər şeydən pul çıxarmağı bacarırlar. Belə anlaşılır ki, Asif adlı həmin şəxs dövlət orqanlarında çalışan dost-tanışlarının başqa toylara necə səxavətlə nəmər yazdırdıqlarını görüb və düşünüb ki, əgər bunlardan 200-nü toya çağırsa, hamısı da toya 100-200-dən nəmər yazdırsalar, bir ətək pul edər.

Bəs real evlənmək olmazdımı? Belə görünür ki, yox. Real evlənməyin xərci çoxdur. Təkcə təzə gəlinə bir mücrü qır-qızıl alınmalıdır. Hələ bunun bayramda gəlin qapısına bəzəkli qoç aparılması, toya qədər 3-4 dəfə xonça daşınması, xınayaxdısı, unikal və bahalı gəlinlik libası tədarük edilməsi, gəlin maşını kirayələnməsi, lüks şadlıq sarayı tutulması və sair və ilaxırı var. Yazıq Asif bunların hamısına pul xərcləsə, onda aldatdığı dost-tanışlarının toya saldıqları puldan özünə nə qalardı?

Ona görə də "dini toy" variantı seçilib. Özü də bu ideyanı ona başqa bir qadın, hazırda Asifin dələduzluğundan şikayətçi olan birisi verib. Təəssüf ki, hakim ona "xanım, bu halda siz özünüz kim oldunuz?" deyə sual verməyib. Bəlkə də verib, bilmirəm.

Bildiyim odur ki, 7-8 il əvvəl Müşviqabad tərəflərdə yaşayan bir kişi də belə etmişdi, oğluna "gəlinsiz", yalançı toy edib pul yığmışdı. Adamın dişində şirə necə qalmışdısa, 4-5 ildən sonra həmin fırıldağa bir də əl atmışdı. Guya ki, oğlu birinci ailəsindən ayrılıb, indi ikinci dəfə evlənir. Neynəsin, həyatdır, qismət...

Amma görünür, ya kişinin bu fırıldağı haqqında duyuq düşən, ağzını orda-burda yayanlar olub, ya da camaat fikirləşib ki, bu, iki gündən bir toy edəcək, biz də hər dəfə gedib bir qarın yeməyə 50-100 manat verəcəyik?

Belə olub, ya qeyri-belə, dəqiq məlumat yoxdur. Dəqiq olan odur ki, 200 qonaq üçün tutulmuş toyxanaya cəmi-cümlətanı 20 nəfərə yaxın adam gəlib. Beləcə, maya basıb qazancı yeyib. Adam öz fırıldağının, dələduzluğunun qurbanı olaraq borca düşüb.

Amma son məsələdə adı keçən Asif prosesdən uğurlu çıxıb, babat pul yığıbmış, çünki bu, onun siftəsidir, ilk işi, ilk "toy"udur.

Bir bu deyil. Yaxın adamlar danışırlar ki, şəhərdə olduqca gözək dələduz qızlar var, pullu oğlanları özlərinə aşiq edir, məsələ nikah masasına gəlir, şadlıq sarayında bitir. Toyun ertəsi günü isə təzə gəlinlər at kimi bəy evinin üzünə durur, yaxşı-yaman danışır (repertuarından asılı olaraq), qızılları mənimsəyir, hələ boşanma ərizəsi yazıb mülk davası da açırlar. Çox adam el içində biabır olmamaq üçün səsini içinə qısır, oğlunun adının "iqtidarsız" çıxacağından çəkinir.

Belə şeylər var. Kimsə nə vaxtsa deyib ki, kişi daşdan pul çıxarmağı bacarmalıdır, pul qazanmaqdan ötrü hər yola əl atmaq olar, bunların da ağlına batıb.

Amma haradan baxsan, yalandan toy edib pul yığmaq axırıncı yoldur. Həm də o mənada ki, bu yolu yeni kəşf ediblər, son icaddır.

Salamatı bu sayaq toylara gedib ulaq yerinə qoyulanlardan olmamaqdır. Amma nə biləsən...

# "Cahangir Hacıyevin siyasi məhbus kimi tanınması mümkün deyil" - hüquq müdafiəçisi

## Mirvari Qəhrəmanlı: "Ola bilər ki, bu, hansısa qrupun marağında olsun"

**"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev və daha 21 nəfər şəxsin cinayət işi icraata götürülüb. Cinayət işinə Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Faiq Qəniyevin sədrliyi ilə baxılacaq. Məhkəmənin hazırlıq iclasının vaxtı hələlik məlum deyil.**

Qeyd edək ki, rəsmi məlumata əsasən, aparılmış istintaqla 2001-2015-ci illərdə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri vəzifəsində işləmiş C.Hacıyevin göstərişləri əsasında ayrı-ayrı ölkələrdə yaradılmış hüquqi şəxslərlə real dəyəri olmayan sadə veksellərin alqı-satqısına dair 3,4 milyard ABŞ dolları və 987 milyon avro məbləğində (müvafiq dövrün məzənnəsi ilə 3,8 milyard manat) müqavilələr bağlanılaraq qanunsuz veksel əməliyyatları aparılmasına dair əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, istintaqla C.Hacıyevin göstərişləri əsasında həmin dövrdə qeyriləri vasitəsilə çoxsaylı kredit müqavilələri bağlanaraq manat və xarici valyutalarla rəsmiləşdirməklə 900 milyon manat həcmində pul vəsaitinin bankdan digər hesablara köçürülərək mənimsənilməsinə dair əsaslı şübhələr müəyyən edilib.

Aparılmış istintaqla C.Hacıyevin tanışı Dünyamin Xəlilov, digər 20 nəfər və qeyriləri ilə birlikdə qanunsuz maliyyə əməliyyatları aparılan və real dəyəri olmayan veksellərin alınması, eləcə də təminatı olmayan kreditlərin verilməsi yolu ilə ümumilikdə 4,7 milyard manat məbləğində pul vəsaitini mənimsəmə və digər cinayətlər yolu ilə 2,5 milyard manat hissəsini ələ keçirməklə cinayət yolu ilə əldə edilmiş həmin vəsaitin 2 milyard manatını leqallaşdırmasında, digər 2,2 milyard manat məbləğində pul vəsaitinin isə müxtəlif əməliyyatlara yönəltməklə "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə ziyan vurmasına əsaslı şübhələr müəyyən edilib.

İstintaqla həmçinin C.Hacıyevin D.Xəlilovla birlikdə faktiki rəhbərlik etdiyi "Aztorq" MMC üzrə 2011-2014-cü illərdə dövlət büdcəsinə 1 milyon 752 min manat vergiləri ödəməkdən yayınmasına əsaslı şübhələr müəyyən edilib.



Zamirə Hacıyeva



Cahangir Hacıyev

Qeyd edilən epizodlar üzrə Cahangir Hacıyevə mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması, vergidən yayınma və digər maddələrlə, D.Xəlilov və digər 20 şəxsə isə mənimsəmə və digər maddələrlə ittiham elan olunmaqla cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Xatırladaq ki, C.Hacıyev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilib.

Bu arada məlumatlar yayılıb ki, Cahangir Hacıyevin siyasi məhbus siyahısına daxil edilməsi və beynəlxalq təşkilatlar tərəfindən siyasi məhbus kimi tanınması üçün bəzi hüquq müdafiəçiləri və siyasətçilər iş aparırlar.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlamasında hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bildirdi ki, kimlərsə Cahangir Hacıyevi siyasi məhbus kimi tanıtmaq istəyə bilər. Lakin bu, heç də o demək deyil ki, həmin istək reallaşacaq. Müsahibimiz dedi ki, Cahangir Hacıyevin həbsində siyasi motiv yoxdur:** "Axı Cahangir Hacıyevi hansısa siyasi fəaliyyətinə görə həbs etməyiblər. O, siyasətlə məşğul deyildi. Onun indiyə qədər keçirilən məhkəmə prosesləri də mən bilən hüquqlarının pozulmadığı şəkildə keçib. Odur ki, Cahangir Hacıyevin siyasi məhbuslar siyahısına daxil edilməsi üçün əsaslar yoxdur. Onun nəyə görə həbs olunduğu həm ölkə ictimaiyyətinə, həm də beynəlxalq təşkilatlara məlumdur. Məni də bir vətəndaş kimi ona qarşı əsəbləşdirən odur ki, Cahangir Hacıyev çox böyük miqdarda dövlət vəsaitini Azərbaycandan çıxarıb. Ölkənin çox böyük miqdarda pulu faktiki olaraq ölkənin əlindən çıxıb. Yeni kimlərsə istəsələr də, hansısa siyahıya yazsalar da onu siyasi məhbus hesab etmək qeyri-mümkündür. Sabiq bank sədri konkret cinayətə görə tutulub. O, siyasi motivlərlə həbs olunmayıb. Amma onu da deyim ki, təkcə hansısa hüquq müdafiəçiləri və ya siyasətçilər yox, həm də hakimiyyətdə olan hansısa güclərdən biri istəsə ki, Cahangir Hacıyev siyasi məhbus olsun, buna nail ola bilərlər. Ola bilər ki, bu, hansısa qrupun marağında olsun. Bununla belə, bunun beynəlxalq təşkilatlar tərəfindən qəbulu qeyri-mümkündür. Çünki Bakıdan göndərilən hər bir siyahıda adı olan hər kəs haqda araşdırma aparılır. Sonra qərar verilir. Cahangir Hacıyevin siyasi məhbus kimi tanınması mümkün deyil".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

## Qida Təhlükəsizliyi Agentliyinin adından istifadə edən şəxslərə ağır cəza

**Qida Təhlükəsizliyi Agentliyinin adından istifadə edərək rüşvət verməyə təhrik etmədə təqsirləndirilən Səfər Vəliyev və Elnur Rzayevin cinayət işi üzrə məhkəmə iclası keçirilib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıxovun sədrliyi ilə məhkəmənin hazırlıq iclası keçirilib.

Məhkəmə prosesində hökm oxunub. Hökmə əsasən hər iki şəxsə 6 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilib.

Qeyd edək ki, rəsmi məlumata əsasən, Qida Təhlükəsizliyi Agentliyi ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılmış birgə araşdırmalar nəticəsində Rzayev Elnur Qadir oğlu və Vəliyev Səfər Məhəmməd oğlunun qabaqcadan əlbir olub cinayət əlaqəsinə girməklə uzun müddət ərzində mütəmadi olaraq, Bakı şəhəri və respublikanın ayrı-ayrı rayonlarında fəaliyyət göstərən ərzaq mağazaları sahiblərinə özlərini Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları kimi təqdim edərək, mağazalarda yoxlama aparılmaması müqabilində sahibkarları rüşvət verməyə təhrik edərək onlardan pul almasına dair əsaslı şübhələr müəyyən edildiyindən, E.Rzayev və S.Vəliyevə Cinayət Məcəlləsinin 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) və 32.4-cü, 312.2-ci (rüşvət verməyə təhrik etmə) maddələri ilə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

❑ İlkin MURADOV,
Musavat.com

# Azərbaycan siyasətində nəsil dəyişmə gedirmi - iki rəy

## Sabiq Rüstəmxanlı: "Azərbaycanda siyasi liderlər çətin yetişir"

## Pənah Hüseyn: "Gənc nəslin siyasi liderlər sırasına gəlməməsinin səbəbi..."

**Həyatın tələbinə uyğun olaraq insanlar getdikcə yaşlanırlar. Azərbaycan siyasətində də eyni mənzərə yaşanır. 1988-ci ildən etibarən siyasətə atılan və hazırda bu siyasətin əsasını təşkil edən liderlərin ömürlərinin üzərinə 30 il əlavə olunub və onlar artıq yaşlı nəsil sayılırlar.**

Ənənəvi siyasətçiləri yenilərin əvəz etməsi prosesi ölkəmizdə ləng getsə də, müəyyən zamanlarda bu hallar yaşanır. Hazırda da nəsil dəyişmə prosesinin getdiyini söyləmək mümkündür. Gənc siyasətçilərin yaşlı nəsil nümayəndələrinin son 30 ildə bu günə qədər ki fəaliyyətlərini bundan sonra necə davam etdirəcəkləri, gələcək baxımından onlara ümidlərin olub-olmadığı suallar doğurur.

Bu suallarla bağlı meydan hərəkatının "şineli"ndən çıxmış siyasətçilərin mövqelərini öyrəndik.


Sabiq Rüstəmxanlı


Pənah Hüseyn

**VHP sədri, milli azadlıq hərəkatının öncül isimlərindən olan, xalq şairi Sabir Rüstəmxanlı "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın indiki siyasi mənzərəsi o qədər də ürəkaçan deyil:** "Bundan sonra proseslərin necə keçəcəyinə baxanda təəssüflənməmək mümkün deyil. 30 il öncəki normal xəritəmizə və ondan sonrakı xəritəmizə baxanda üzülməmək mümkün deyil. Düzdür, müstəqillik qazanmışıq, amma torpaqlarımızın bir hissəsini itirmişik. Belə olan halda ümidlə, nikbinliklə danışmaq çox çətindir. Bunun məsuliyyətinin bir hissəsi də siyasətçilərin üzərindədir - həm yaşlı, həm də gənc nəslin. Nəsillərin dəyişməsi təbii prosesdir. Bunu süni yolla həyata keçirmək mümkün deyil. Gənclər gəlir, yaşlı nəsil yavaş-yavaş sıradan çıxır. Gənclərin necə gəldiyini, hər şeyin ürəyimizcə olduğunu demək bir qədər çətindir. Azərbaycanda siyasi liderlər çətin yetişir. İndiki vəziyyətdə siyasətlə məşğul olmaq olduqca çətindir. Mənim nəzərimdə 1988-ci ildən ortada olan nəsil daha aydın, konkret görünür, xarakter sezilir. Sonrakı gənclər üçün şəraiti biz yaratmalıydıq, onlara yol açmaq, onları yetişdirmək, onlara yardım etmək imkanlarımız təəssüf ki, olmadı. Əslində siyasi mühit də onların yetişməsinə mane olub. Ortada meydandan gələn siyasətçiləri onlara müqayisə etdikdə aydın gördüyüm siyasətçilər azdır. Olanlar da özlərini hələ tam şəkildə təsdiq edə bilməyiblər".

**AXP sədri, sabiq baş nazir Pənah Hüseyn siyasətdə azad rəqabətin, yarışın olmasının vacibliyindən danışdı:** "Azərbaycanda azad rəqabət olmadığı üçün siyasi rəqabətdə də azad şərait yoxdur. Bunun üçün ən azından normal seçkilər lazımdır. Bunlar olmadığı üçün təbii seçim prosesi getmir. 80-cı illərin sonu və 90-cı illərin əvvəlləri inqilablar dövrü idi. O dövrdə əksəriyyəti gənc olanlar siyasi meydana atılmışdılar. Zaman-zaman müxtəlif xalqların tarixində belə dönəmlər olur. Yeni siyasətçilərin, o cümlədən gənc nəslin siyasi proseslərə, siyasi liderlər sırasına gəlməməsinin səbəbi azad olmayan rəqabətdir. Gənclik çalışmalıdır ki, hakimiyyət dəyişsin. Belə olan halda onların önə çıxması, ictimai rəydə yer tutması imkanları yaranar. Amma istənilən halda təbii proseslər baş verir. Bu iqtidara da aiddir. Bilirsiniz ki, orada da bu problem var. Bu bütövlükdə Azərbaycan cəmiyyəti üçün bir problemdir. Həll olunmalı məsələlərdən biridir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Ali məktəblərə qəbul qaydaları dəyişdi: yeniliklər nə vəd edir...

## Kamran Əsədov: "İndiyə qədər şagirdlərimiz buraxılış imtahanlarına müsbət yanaşmasalar da, bundan sonra belə olmayacaq"



**"Ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda dəyişikliklər edilib. Bu barədə baş nazir Novruz Məmmədov qərar verib.**

Qərara görə, əsas dəyişikliklər aşağıdakılardır:

Qəbul imtahanını rus dilində verən abituriyentlər Azərbaycan dili (dövlət dili kimi) fənnindən ayrıca imtahan verirlər.

Abituriyent hər sessiyada istədiyi ixtisas qrupu üzrə yalnız bir imtahanda iştirak edə bilər. I-IV ixtisas qrupları üzrə qəbul imtahanında iştirakından asılı olmayaraq, abituriyent V ixtisas qrupu üzrə də imtahanda iştirak edə bilər. İxtisas qrupları üzrə imtahan fənləri, onların üstünlük dərəcələri və nisbi əmsalları aşağıdakı kimi müəyyən edilib.

Qəbul imtahanının ikinci mərhələsində abituriyentlərə hər fənn üzrə 30 olmaqla, ümumilikdə 90 tapşırıq təqdim edilir. Qəbul imtahanının ikinci mərhələsində abituriyentlərin toplaya biləcəyi maksimal bal nisbi əmsalı 1,5 olan fənlər üzrə 150 bal, nisbi əmsalı 1 olan fənlər üzrə 100 bal olmaqla, cəmi 400 baldır. İmtahanın davametmə müddəti 3 saatdır.

Hər mərhələdə imtahanın məzmunu, yəni təhsil alanlara təqdim edilən tapşırıqların növü və qiymətləndirilmə qaydası mərkəz tərəfindən Təhsil Nazirliyi ilə razılaşdırılmaqla müəyyən edilir və hər il tədris ilinin başlanılmasından 1 ay müddət keçənədək elan edilir. İmtahan suallarının məzmunu mərkəz tərəfindən hazırlanmış və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla təsdiq edilmiş imtahan fənləri üzrə qəbul proqramlarına uyğun müəyyən edilir. İmtahanların keçiriləcəyi günlər və imtahanların aparılması texnologiyası Mərkəz tərəfindən müəyyənləşdirilir.

Qəbul imtahanlarında əlilliyi olan şəxslərin iştirakının təmin edilməsi üçün mərkəz tərəfindən əlverişli şərait yaradılır. I qrup gözdən əlilliyi olan abituriyentlərə fərdi nəzarətçi təyin edilir və onlar üçün imtahanın davametmə müddəti hər mərhələdə 1 saat artırılır.

**Dəyişikliklərlə bağlı "Yeni Müsavat"a danışan təhsil eksperti Kamran Əsədov yeniliklərin təhsilə hansı faydalar verəcəyi barəsində danışıb. O, bildirib ki, yeniliklər müasir çağırışlara cavab verir:**

"2019-cu ildə ali və orta ixtisas təhsil müəssisələrinə qəbul qaydaları tamamilə dəyişir. Birinci mərhələdə həm 9-cu, həm də 11-ci sinfi bitirən şagirdlər buraxılış imtahanı verəcəklər. İndiyə qədər buraxılış imtahanlarında ancaq ana dili və riyaziyyat fənnindən imtahan verirdilərsə, bundan sonra onlar əlavə olaraq xarici dildən də imtahan verəcəklər. Yeniliklər 11-ci siniflərlə bağlı daha çoxdur. Belə ki, indiyə qədər qəbul imtahanlarında buraxılış imtahanının nəticəsi nəzərə alınmırdı və təsir göstərmirdi, ancaq 2019-cu ildən etibarən buraxılış imtahanlarının nəticələri birbaşa olaraq qəbul imtahanlarına təsir göstərəcək. İndiyədək buraxılış imtahanında iki fəndən ana dili ( rus bölməsi rus dili) riyaziyyat fənnindən imtahan verib, maksimum 90 bal toplayırdılarsa, bunun da qəbul imtahanına heç bir təsiri yox idisə, 2019-cu ildə fənlərin sayı 3 olacaq. Ümumilikdə buraxılış imtahanına 30 ana dili, 30 riyaziyyat, 25 xarici dildən test tapşırığı veriləcək. Ümumilikdə bu mərhələdə uşaqlar 0-300 bal arasında toplaya biləcəklər. Birinci mərhələdə ali məktəblərə qəbul olmaq istəyənlərin bazası formalaşacaq, həm də onlara attestat veriləcək. Qəbul imtahanlarının birinci mərhələsinin (buraxılış imtahanlarının) nəticələri 2 il qüvvədə olur, cari və növbəti tədris illərində abituriyentə ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququ verir. Abituriyent öz istəyinə uyğun olaraq, müsabiqədə iştirak etmək üçün müvafiq tədris ilində yenidən qəbul imtahanının birinci mərhələsində iştirak edə bilər. Bu zaman abituriyent müsabiqədə hansı imtahanın nəticəsi ilə iştirak edəcəyini özü müəyyən edir.

İkinci mərhələdə isə qəbul imtahanı mərhələsidir. İndiyə qədər biz öyrəşmişdik ki, qəbul imtahanlarında maksimal bal 700-dür. Lakin 2019-cu ildə bu, 400 bal olacaq. Birinci mərhələdə maksimum 300, ikincidə isə 400 bal toplayanlar, yenə də 700 bal yığacaqlar. Ancaq artıq bu, mərhələlər arasında bölünmüş olacaq. Yeni 700 bal yekun bal hesab ediləcək".

**Ekspert bildirib ki, yeniliklərdən biri də ixtisas qruplarındakı fənlərlə bağlıdır:**

"2019-cu ilə qədər 4 ixtisas qrupunun hər birində 5 fənn vardısa, 2019-cu ildə bu fənlərin sayı 3-ə endirilir. Həmin bu fənlərdən toplanan bal isə 400-dür. Sualların sayında da yenilik var. Belə ki, indiyə qədər hər fəndən 25 test tapşırığı vardı. Müəyyən ixtisas qruplarında isə bunlardan 4-ü açıq, 21-i qapalı olurdu. 2019-cu ildən isə 1 fəndən 30 test tapşırığı olacaq. 22 test tapşırığında cavablar imtahan iştirakçılarına bəndlər olaraq veriləcək (a, b,c, d, e). 5 test tapşırığı açıq tipli olacaq. 3 test tapşırığı isə situasiya tiplidir. Hesab edirəm ki, ümumən bu yeniliklər nəticələri ciddi şəkildə aşağı salacaq. Çünki eyni modeldə iki dəfə buraxılış imtahanı keçirilib və nəticələr çox aşağı idi. Bu baxımdan deyərdim ki, 2019-cu ilin qəbul imtahanlarının nəticələri o qədər də qənaətbəxş olmayacaq. Ən əsas da buna səbəb xarici dillə bağlı test tapşırıqları olacaq. Çünki abituriyentlərdən dinləmə tipli test tapşırıqları soruşulacaq. Bu, ilk dəfədir ki, tətbiq olunur. Bunun müsbət tərəfi odur ki, indiyə qədər şagirdlərimiz buraxılış imtahanlarına müsbət yanaşmasalar da, bundan sonra belə olmayacaq. Yenilik labüd idi. Çünki biz 2008-ci ildən etibarən, kurikulum standartları ilə tədris prosesini qurmağa başlamışıq. Artıq 2008-ci ildə 1-ci sinfə gedən uşaqlar 2019-cu ildə məzun olacaqlar. Onlar 11 il ərzində kurikulum üsulu ilə bilik və bacarıqlarını formalaşdırıblar. Buna görə də ənənəvi üsulla onların biliklərini yoxlamaq mümkün deyil. Dərsliklər, qiymətləndirmələr yenilənib. Lakin etiraf edək ki, nə qədər yenilik olsa da, şagirdlərimiz və müəllimlərimiz bunları tam şəkildə mənimsəməyiblər. Əslində yenilik müasir çağırışlara cavab verir. Ancaq məncə, ilk 2-3 ildə o qədər də qənaətbəxş nəticə olmayacaq. Qəbul qaydalarını çox dəyişmək əslində faydalı deyil. Amerikada, Fransada illərdir ki, qəbul qaydaları eynidir. Bizdə isə son illərdə xeyli dəyişiklik olub. Təhsil ən azı 10 ildən sonra nəticə verir. Biz isə nəticəni gözləmədən islahat aparırıq. Belə də olmaz. Birinci kitabı oxuyub qurtarmamış, ikinci kitab çıxırsa, bunun yan təsirləri də ola bilir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



# Tarixi təkər

Zamin HACI
zaminhaci@gmail.com

## “Yalanla plov bişsə, dəniz qədər yağı məndən”

*(Azərbaycan ata sözü)*

**Deyir, bir nəfər tarix müəllimimiz Türkiyədə televiktorinada “20 Yanvar”la bağlı sualın cavabında çətinlik çəkibdir. Əslində cavabı bilirmiş, ancaq orada yanvara ocaq deyilməsi bunu çaşdırıbdır. Ancaq istəsən lap yanvara avqust de, bunun bizim tarixə münasibətimizdə fərqi olmayacaqdır. Guya biz “20 Yanvar”ın tarixini düzgün bilirik? Hərənin ağzından bir avaz gəlir, özünə tarixçi alim adı yapışdıranlar belə müxtəlif şayiələr əsasında cızmaqaralar ediblər. Misal üçün, bu yaxında bir nəfərin açıqlaması vardı, dediyindən belə çıxırdı, bizim gəmi kapitanlarımız dənizi rus-sovet ordusunun üzünə bağlayıblar, az qala oradan bir nəfər də sahilə çıxa bilmirmiş. Təxminən, “general gəldi əl görüşsün, tüpürdüm onun üzünə, dedim, sən bizim xalqı qırmısan” tipində açıqlamalardandır. Hələ “20 Yanvar”ın ildönümü yaxınlaşdıqca bu cür sərsəmləmələrin dozası artacaqdır. O üzdən, ən yaxşısını bir neçə il qabaq hansısa telesorğuda “20 Yanvar” haqda suala “Məşqə gecikirəm” cavabını verən uşaq eləmişdi. Böyüklər bilmirsə, yazıq uşağı niyə sıxışdırasan?**

Sözgəlişi, mənim yadıma gəlir, 1990-cı ildə “20 Yanvar” qurbanlarının sayı 131 nəfər idi. İllər ötdükcə bu say hansısa müxbirlərin qoltuq altından çıxartdığı rəqəmlər hesabına arta-arta getdi və dünən mən Vikipediyada baxdım artıq 170 nəfərə çatıbdır. Ümumən bir qeyd edim ki, bizdə tarixə münasibət həddən artıq siyasiləşib, bu baxımdan güman etmirəm, “20 Yanvar”ın da həqiqətlərini tezliklə açıq yazmaq mümkün olsun.

Gələn ildən ali məktəblərə qəbul qaydasının dəyişilməsindən narahat olan vətəndaşlarımızı da başa düşmək olmur. Nə fərqi var hansı qayda ilə olacaq? Həmin mənasız diplomlar sizin nəyinizə lazımdır? 5 il ona əziyyət çəkib, pul verməkdənsə (bizdə ödənişsiz, dövlət hesabına təhsil fiksiyaya çevrilibdir) uşağı indidən bir taksi şoferinin yanına qoyun, adam daşımaq öyrənsin. Ərəb dili kursuna yazdırın, aşağı yeri 2 manatdan Yasin oxuyar, bir az özünü tutsa ərəb turistlərə tərcüməçilik edər, pulu olar. Qız uşağıdırsa xınayaxdı, saçburdu, dırnaquzatdı kurslarına qoyun. Daima çörəyi olacaqdır. Yoxsa gedib hansısa çobandan 7 il terapiya, hansısa lotudan beynəlxalq hüquq, nə bilim, menecment, marketinq-zad “öyrənməyin” mənası nədir? İstəsəniz balaca araşdırma aparın: bütün ali məktəblərdə kafedra müdirləri, professorlar hansısa məmurlar, deputatlar-filanlardır. Bunlardan çağdaş dünyada nə öyrənmək olar? Əslində öyrənmək olar e, ancaq onlar bildikləri cəngəllik qanunlarını yadlara heç vaxt öyrətmirlər. Əqrəbadan olmalısan.

Savadsızlıq elə kütləvi hal alıb ki, vətəndaşlar televiziya müxbirlərini çağırıb, barmaqlarına dolayırlar. Srağagün internetdə bir süjet gördüm. Qəssaba oxşayan bir qardaşımız iddia edirdi ki, əbədi mühərrik qayırıbdır, jurnalist də ağzına çullu dovşan sığışmadan bunu efirə verirdi. Bəs MTRŞ hara baxır? Niyə bunları çağırıb demir ki, yalan danışmayın, milləti aldatmayın, əbədi mühərrik fizika qanunlarına görə mümkün deyildir? Bəyəm MTRŞ ancaq hansısa manısın şpaqat açmasını, hansısa zurnalistin “artıq” yox, “uje” deməsini tənqid üçündür?

Veriliş isə yumor baxımından çox ləzzətli idi, fizik dostum, millətə Karl Saqanı təbliğ eləməkdən başı şişmiş Yalçın İslamzadənin yeri məlum. Demək, qəssab (bəlkə də ayrı peşə yiyəsi idi, qəssablar məni bağışlasın) qardaşımız iki velosiped təkərinə kərkiyə oxşar əcaib dəmirləri yeldəyirmanı formasında bərkitmişdi, guya bunların ağırlıq mərkəzi mexanizmi daimi fırlandırırdı. Deyirdi bunun hələ yekəsini, uzununu qayırıb binanın damına qoyacağam, hamıya işıq verəcəyəm, bəlkə “Azərenerji” iflas oldu. Ancaq elə veriliş zamanı bu həngaməni əliylə güc-bəla, iki-üç dövrə fırlatdı, sonra qurğu dayandı! Müxbir deyilən bəndənin ağlına gəlmədi soruşsun ki, ay müəllim, bəs bu əbədi mühərrikə qıraqdan heç bir impuls, enerji lazım deyilsə, niyə bu dayandı? Özün dayandırdınsa, nöşün dayandırdın, qoy fırlansın da bə, işıq yazır bəyəm?! Müxbiri təkərə salmışdı.

Ancaq mən bilirəm o qurğu enerjisini haradan alırdı.

**İngiltərənin “The Guardian” qəzetində Azərbaycan əleyhinə dərc olunan son məqalə ölkəmizdə hiddətlə qarşılanıb. Dünyaca nüfuzlu nəşrin son zamanlar tez-tez ölkəmiz əleyhinə böhtan xarakterli bu cür yazılar dərc etməsi rəsmi Bakının səbir kasasını doldurub.**

# “The Guardian” qəzetinin məqaləsinə deputatlardan sərt təpki





**Azay Quliyev:** “Heç kim ”fake news"un hücumlarından sığortalanmayıb"
**Fəzail Ağamalı:** “Yazını təkzib etsin, cənab prezident və onun ailəsindən üzr istəsin”

“Təəssüf ki, İngiltərənin ”Guardian" qəzeti bütün həqiqətləri təhrif edən “fake news” istehsalçısına çevrilib. Bu günlərdə qəzetin prezident Əliyevin ailəsi haqqında çap etdiyi yalan və böhtan dolu məqaləsi bunun bariz sübutudur".

**Bu sözləri QHT Şurasının sədri, deputat Azay Quliyev twitter hesabında yazıb. Deputat hesab edir ki, heç kim saxta xəbər və qarayaxmadan sığortalanmayıb:** “Heç kim ”fake news"un hücumlarından sığortalanmayıb və biz hamımız gözləmədən belə bir saxta məlumat yayanlar və ictimaiyyəti çaşdırmağa cəhd edənlər barədə danışmalı və belələrinə qarşı mübarizə aparmalıyıq".

Qeyd edək ki, son illərdə Avropadan Azərbaycana qarşı təzyiqlər artmağa başlayıb. Xüsusilə bəzi azərbaycanlı mühacirlərdən ibarət “söyüş müxalifəti”nin bir sıra Avropa ölkələrində fəallaşması və həmin ölkələrin buna sərgilədikləri susqun mövqe rəsmi Bakını ciddi şəkildə düşünməyə vadar edir.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı öncəliklə 24 dekabrda 57 yaşı tamam olan prezident İlham Əliyevi təbrik etdi:** “Sizin mənə müraciətinizdən istifadə edərək, cənab prezident İlham Əliyevi doğum günü münasibətilə bir daha səmimi qəlbdən təbrik edirəm. Ona möhkəm cansağlığı arzulayır, ailə səadəti diləyirəm. Şərəfli və çətin işlərində yeni-yeni pillələrə qalxmaq yolunda, Azərbaycanı böyük gələcəyə, güclü-qüdrətli, inkişaf etmiş ölkələr sırasına çıxarmaqda yeni-yeni uğurlara atmağı diləyirəm. Allah onu qorusun. Allah Azərbaycan prezidenti ilə xalqımızın vəhdətini millətimizə, ölkəmizə, prezidentimizə çox görməsin.

Azərbaycan yeni-yeni uğurlar qazandıqca, regionda əsas söz sahiblərindən birinə çevrildikcə, işğal olunmuş torpaqlarımızla bağlı ölkə rəhbərinin qətiyyətli mövqeyi ciddi xarakter daşıdıqca, bu və ya buna bənzər yazılar, ayrı-ayrı təşkilatların hesabatlarında ölkəmizə qarşı böhtanlar yer alır. Sanki bu bir ənənə xarakteri daşıyır. Bütün bu yazılar sifarişlidir. Ölkəmizi beynəlxalq səviyyədə nüfuzdan salmağa, ölkə prezidentinin nüfuzuna xələl gətirməyə hesablanmış yazılardır. Nəticə etibarı ilə Azərbaycan prezidentinə, cəmiyyətinə etimadı azaltmaq, prezidentlə cəmiyyətin vəhdətini zədələmək məqsədi daşıyır. Heç də obyektivliyi özündə əks etdirən yazı deyil. Böhtan, iftiralarla ölkə rəhbəri və ailəsi ilə bağlı dərc edilən bu məqalə növbəti iftiradır. Buna görə, məncə, xaricdəki səfirlərimiz ilk növbədə daha ciddi şəkildə işləməlidirlər. Onların fəaliyyətinə kölgə salmaqdan çox-çox uzağam. Çünki onlar çalışırlar, fəaliyyət göstərirlər. Amma görünən odur ki, bu kifayət etmir. Onlar fəaliyyətlərini daha geniş qurmalıdırlar. Oradakı cəmiyyətlərlə, təşkilatlarla işləməyi bacarmalıdırlar. Ciddi işləmək lazımdır ki, bu cür şər-böhtan xarakterli davranışları, yazıları minimum səviyyəyə endirək. Azərbaycana qarşı Qərbdə anti-Azərbaycan koalisiyası fəaliyyət göstərir. Bu koalisiyada erməni lobbisi də yer almaqdadır. Onlar parlamentlərdə, dövlət strukturlarında yer alır, ictimai həyatda fəaldırlar. Anti-Azərbaycan koalisiyasında xristian təəssübkeşliyi özünü açıq şəkildə göstərir. Təsəvvür edin ki, Amerikada Barak Obama dönəmində Dövlət Departamentinin rəhbəri erməni lobbisinin ən fəal üzvlərindən biri idi. Bu şəxs vaxtilə Mixail Qorbaçova Azərbaycanı cəzalandırmaq lazımdır məktubuna imza atan şəxs olub. Bütün bunlar görün hansı mətləblərdən xəbər verir. Söhbət burada Con Kerridən gedir. Dünyanın güc dövlətinin xarici siyasətinə rəhbərlik edən bir şəxsin erməni lobbisinin ən fəal üzvlərindən biri olması heç şübhəsiz ki, Azərbaycana ziyan verməkdən başqa bir şey deyildi. Avropa ölkələrində hazırda bu tipli insanlar müxtəlif strukturlarda var. Ermənilər uzun illərdir bu cür işlərlə məşğul olurlar. Azərbaycandan xaricdə çoxsaylı soydaşımız var. Onların fəaliyyətini koordinasiya edib, onların da vasitəsilə həmin cəmiyyətlərdə öz mövqeyimizi gücləndirməli, mətbuata çıxmalıyıq. Çalışmalıyıq ki, anti-Azərbaycan qüvvələrin ölkəmizə qarşı fəaliyyətlərinin qarşısını alaq. Təəssüf ki, bu qüvvələrin içərisində erməni lobbisinin və anti-Azərbaycan qüvvələrin maliyyəsi ilə lüks həyat yaşamaq eşqində olan, şərəf və ləyaqətlərini itirmiş antimilli qüvvələr də var. Bunlara qarşı da ardıcıl, sistemi mübarizə aparmaq lazımdır. Unutmalı deyil ki, tariximizin ən faciəli cəhəti ondadır ki, biz erməni kimi məkrli, riyakar xalqla, yaramaz toplumla qonşuyuq. Qarabağ məsələsi həll olunacaq. Ölkə prezidentinin iradəsi ortalıqdadır. Danışıqlar bir nəticə vermir. Son sözü Azərbaycanın qəhrəman ordusu deyəcək. İşğal olunmuş torpaqlarımız mütləq azad ediləcək. Amma ermənilərin bizə qarşı düşmənçilikləri səngiməyəcək. Necə ki, illərdir qondarma soyqırım adı ilə Türkiyənin üzərinə gedirlər. Biz bu cür yazılara, davranışlara qarşı cəmiyyət olaraq təpki göstərməli, onun qarşısını almalı, onlara qarşı ifşaedici məlumatlar verməliyik. Bununla bağlı hörmətli hüquqşünaslarımız məsələni araşdırmalıdır. Hansısa bir səviyyədə həmin qəzetə təkzib göndərilməli, irad bildirməlidir. Ondan tələb olunmalıdır ki, yazını təkzib etsin, cənab prezident və onun ailəsindən üzr istəsin. Əgər bu alınmayacaqsa, qəzet məhkəməyə verilməlidir. Bununla qəzetə qarşı sanksiyaların tətbiqinə və cərimələnməsinə nail ola bilərik. Bütün bunlara baxmayaraq, biz prezidentimizi qorumalı, onun yanında olmalıyıq. Zəiflər əzilir, güclülər yaşayır, biz güclü xalq, dövlət kimi irəli getməliyik".

❑ Cavanşir ABBASLI,
“Yeni Müsavat”

**“Bu il Rusiya-Azərbaycan münasibətləri çox sürətlə inkişaf edib. Prezident Vladimir Vladimiroviç Putinlə 6 dəfə, o cümlədən mənim Rusiyaya rəsmi səfərim və onun Azərbaycana səfəri, həmçinin beynəlxalq tədbirlər çərçivəsində görüşmüşük”. Bu barədə prezident İlham Əliyev “Rossiya 24" telekanalına müsahibəsində bildirib.**

# Putin bu il ən çox Əliyev və Ərdoğanla görüşüb - Qarabağa şans pəncərəsi

## Azərbaycan və Türkiyənin Rusiya üçün önəmi artır, iki qardaş ölkə liderinin Putinin yanında söz sahibliyi güclənir; Ermənistanın yeni rəhbərliyi yeni və sərt reallıqla üz-üzə...



Onun sözlərinə görə, həmin görüşlərin hər biri uğurla nəticələnib. “Şadam ki, bu gün azərbaycanlı investorlar kimi, rusiyalı investorlar da ölkələrimizin iqtisadiyyatına sərmayə yatırır, mal dövriyyəsinin artırılması, birgə istehsalların yaradılması üçün çox güzəştli şərtlər yaradılır”, - prezident qeyd edib.

**İlham Əliyev qarşılıqlı münasibətlərin müxtəlif istiqamətlərinin inkişafı üzrə “yol xəritələri”nin hazırlandığını da deyib.** “Düşünürəm ki, nəqliyyat sahəsində birgə təşəbbüslərimiz ikitərəfli ticarətin inkişafına ciddi təkan verəcək. "Şimal-Cənub" layihəsi artıq həyata keçirilir. Yalnız bu il biz Azərbaycan vasitəsilə tranzitin on dəfə artmasını müşahidə edirik", - dövlət başçısı vurğulayıb.

**Prezident onu da qeyd edib ki, Bakı və Moskva ikitərəfli münasibətlərin inkişafına kompleks şəkildə yanaşır.** “Münasibətlərimizə kompleks şəkildə yanaşırıq. Bunun özülü isə tarixi dostluğumuzdur. Həmin özül üzərində biz siyasi münasibətlərin çox ciddi bazasını qurmuşuq” - İlham Əliyev əlavə edib.

*****

Maraqlıdır ki, Rusiya lideri xarici ölkə başçıları arasında bu il Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla da rekord sayda - 7 dəfə görüşüb. Az öncə Moskvadan bunu rəsmən bildiriblər. Deməli, iki qardaş ölkənin Rusiya üçün strateji önəmi xeyli artıb. Bu il Bakı həmçinin iki dəfə (aprel və dekabr) Rusiya və NATO Silahlı Qüvvələri Baş Qərargah rəislərinin görüş məkanı olub ki, bu da sözsüz ki, Azərbaycanın dünyada artan avtoritetinin və ona etimadın başqa bir təzahürü sayıla bilər.

Bütün bu pozitiv gəlişmələr əlbəttə ki, gələn il ikitərəfli münasibətləri daha yüksək səviyyəyə qaldırmaq və regiondakı problemləri müştərək qın boğazından kəsərək aldığı ən müasir, bahalı silahları da illərlə vitrinə qoymaq fikrində deyil. 2016-cı ilin aprel dərsi var. Nikol bunu qulaqardı edə bilməz.

Başqa yandan, yeni müharibə sanksiyalardan əziyyət çəkən Moskvaya əsla lazım deyil. Çünki bu müharibə minimum Azərbaycan və Türkiyə kimi strateji tərəfdaş duğunu söyləyib. Diplomat bunu mətbuat konfransında konfliktin həlli perspektivləri barədə danışarkən söyləyib.

**Lakin səfir xatırladıb ki, nikbinlik üçün əsaslar bu il - Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşlərinin keçirilməsi ilə qoyulub.** “Bu yaxınlarda Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun bununla şəkildə aradan qaldırmaq üçün daha yaxşı zəmin, unikal fürsət deməkdir. Söhbət həm də 30 ildir həlli uzanan Dağlıq Qarabağ konfliktindən gedir.

Sirr deyil ki, rəsmi Bakı 2019-a xüsusi optimizmlə baxır. Bir səbəb də odur ki, Ermənistanda hakimiyyətə əli günahsız insanların, uşaqların qanına batmayan qüvvə, Nikol Paşinyan gəlib. Hərçənd onun Qarabağla bağlı mövqeyi hələ ki sələflərindən ciddi şəkildə fərqlənmir. Ümid edək ki, öz komandasını tam formalaşdırdıqdan sonra Paşinyan Qarabağ reallıqlarına daha realist gözlə baxa biləcək və konstruktivlik göstərəcək.

Daha bir səbəbə görə: Ermənistanın “demokratik” hökuməti də əvvəlki kursu davam etdirsə, işğal rejimini süni şəkildə uzatmağa çalışsa, gələn il müharibə riski olduqca yüksək olacaq. Azərbaycanın dözüm limiti sonsuz deyil, hətta artıq bitib. Bakı xalölkələrlə yüksəlişdə olan ələqələri ciddi sınağa çəkəcək. Yeri gəlmişkən, bu yaxınlarda Türkiyə lideri də Qarabağ ixtilafının həllində ciddi irəliləyiş əldə eləməyin vaxtı çatdığını söyləmişdi.

Bu üzdən hərbi əməliyyatların daha geniş miqyasda qızışmaması üçün Moskva, Putin gələn il real addımlar atmalıdır. Kreml gələn il ya Azərbaycan torpaqlarının heç olmasa, bir hissəsinin qeyd-şərtsiz azad edilməsinə zəmin yaratmalı, ya da Bakının silah gücünə bir (neçə) rayonu azad etməsinə göz yummalıdır ki, işğalçı Ermənistan Azərbaycanın hərbi qüdrətinə əmin olub danışıqlarında konstruktiv mövqeyə köklənsin.

*****

Maraqlıdır ki, bu arada Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov gələn il Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı daha əlverişli ab-havanın yaranacağına dair ehtiyatlı nikbinlik duybağlı qiymətləndirməsini eşitmişəm və bilirəm ki, yanvar ayına növbəti görüş planlaşdırılıb. Rusiya bu tendensiyanı alqışlayır və ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi kimi, bu cür görüşləri dəstəkləməyə davam edəcək” - səfir əlavə edib.

Əlbəttə, səfir işin içində olan şəxs deyil. Üstəlik, Azərbaycana təzəcə gəlib. Məsələdə əsas söz sahibi əlbəttə ki, prezident Putindir - bu il rekord sayda Əliyev və Ərdoğanla görüşən Rusiya prezidenti. Bu görüşlərin təsadüfi olmadığını Kreml başçısının 2019-da sübut etməsi lazım gələcək - ələlxüsus Qarabağ məsələsində...

“Rossiya 24”ə müsahibəsində İlham Əliyev bildirib ki, görüşlər zamanı ikitərəfli qarşılıqlı münasibətlərin müxtəlif istiqamətlərinin inkişafı üzrə "yol xəritələri" hazırlanıb. Onlardan biri niyə də Qarabağ üçün hazırlanmasın?..

**❑ Siyasət şöbəsi, “Yeni Müsavat”**

# Problem hicabda yox, başdadır!



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Tacikistan hökuməti hicablı qadınların dövlət və özəl idarələrə daxil olmasını qadağan etməyə hazırlaşır. “Hökumət qadınlara hicab və qara rəngli baş örtüyü taxmağı məsləhət görmür”. Xəbərdə beləcə də deyilir.**

Ayaqqabı, şortik, saç düzümü ilə bağlı da tacik hökuməti camaat üçün təlimat hazırlayıb məsləhət versəydi, lap fısqırıq olardı. Ölkə hüquq müdafiəçiləri və hicablı qadınlar isə bu məhdudiyyətləri haqlı olaraq, insan hüquq və azadlıqlarının kobud pozuntusu kimi qiymətləndirirlər.

Burada deyiblər. “Bircə saqqal darağı çatmırdı”. Tacikistan rəsmilərinin dərdinə bax. Xristian dövlətlərində, Avropada, ABŞ-da hicabda təhsil almaq, işləmək olar, idarə-müəssisələrə sərbəst daxil olmaq olar, müsəlman Tacikistanında olmaz.

Bunlar o yana dursun. İş ondadır ki, Tacikistan postsovet məkanında ən acından ölən ölkədir. BMT hesabatlarına görə, burada əhalinin gündəlik gəliri 1 dollardan da aşağıdır. Əmək qabiliyyətli taciklər kütləvi şəkildə ölkədən qaçır, Rusiyada, başqa yad diyarlarda çörək pulu xətrinə istənilən çirkli işi görməyə razı olurlar.

Ölkə rəhbərliyi, sovetlər dağılandan respublikanın başında durub heç kimi yaxına buraxmayan, oğlunu yüksək dövlət vəzifəsinə qoyub öz yerinə hazırlayan prezident İmaməli Rəhmon bunun dərdini çəkməkdənsə, hicab dərdi çəkir. Təki oğlu eyş-işrət içində yaşasın, qohum-əqrəba yağ-bal içində olsun. Millətin canı çıxsa da, Rusiya çöllərinə səpələnsə də olar. Bir də əsas odur, Rəhmonun gəldiyi yola acından ölən xalq gül-çiçək səpələsin - nəyi ki, o çox xoşlayır...

Söhbət yenə çadradan getsəydi, dərd yarıydı. Çünki ilahiyyatçılar da təsdiqləyir ki, Qurani Kərimdə çadra söhbəti yoxdur. Di gəl, taciklərin islamofob baş bilənləri “Roma papasından artıq katolik olmaq” sevdasına düşüblər. Əslində isə hədəf xalqın başını qatmaq, onun diqqətini ölkədəki ağır sosial-iqtisadi problemlərdən, böhranlı durumdan yayındırmaqdır. Buna odu söndürüb külü ilə oynamaq da demək olar.

Şəkk-şübhəsiz, Rəhmonun dövründə taciklərin durumu bundan yaxşı olmayacaq. Olsaydı, 27 ildə olardı. Bugünkü Tacikistan dövləti isə əslində xalqı necə idarə eləmək olmazın parlaq nümunəsidir. Pis bir örnəkdir. Kim nə deyir-desin, ölkə əhalisinin vəziyyəti, dolanışığı onun rəhbərindən birbaşa asılıdır. Əgər rəhbərdə islahatçı qabiliyyəti, dərin zəka, ədalət yoxdursa, öz övladları ilə xalqın övladları arasında fərq qoyursa, əgər o, diktatura və şəxsiyyətə pərəstişlik xəstəsidirsə, vay o xalqın halına!

Doğru, müsəlman ölkələrinin əksər xalqlarının rəhbər məsələsində bəxti gətirməyib. Ancaq bunu aparıb dinə, islama, müqəddəs Qurana bağlamaq da böyük yanlış və ədalətsizlik olar. Çünki Quran müsəlmanlar üçün bir növ konstitusiyadır, əxlaq kodeksidir. Ona əməl edənlər və etməyənlər var. Buna görə konstitusiya suç yiyəsi olmaz.

Bir də ki, müsəlman olmayan, lakin əhalisi səfalət içində yaşayan Şimali Koreya, Venesuela kimi çoxlu ölkələr var. Oralarda da insanların gündəlik gəliri cəmi 1 dollardan çox deyil, əhalinin mütləq əksəriyyəti yoxsuldur. Demək, problem dini baxışlarda deyil, başçının təfəkkürü və təkəbbüründə, siyasi savad və biliyinin olub-olmamasında, öz yerini bilməməsində, hətta aldığı tərbiyədədir.

Bir də axı dünyəvi dövlət sayılan Tacikistanda da din dövlətdən ayrıdır. Yəni dövlət dinin işlərinə, etiqad məsələsinə qarışa, kobud müdaxilə edə bilməz. Bu, əks effekt verər. Və bir məmləkətdə din azad deyilsə, heç nə və heç kim azad deyil. Etiqad azadlığı yoxdursa, heç bir azadıq yoxdur.

Bu xüsusda taciklərin bəxti heç gətirməyib. Bu, həm də Tacikistan hakimiyyətinin narazı xalqdan nə dərəcədə ehtiyatlandığının təzahürüdür. Millətinə gün ağlayan, onu ağ günə çıxarıb rifaha qovuşduran heç bir rəhbər onun geyimindən, saç düzümündən, qolundakı “tatu”lardan narahat olmaz. Ən əsası, özünü hamıdan ağıllı saymaz. Problem də elə ağılda, başdadır, qətiyyən hicabda yox. Tacik prezident isə sanki xalqı üçün bütün işləri görüb qurtarıb deyə, onun üçün indi də “saqqal darağı” fikirləşir...

YENİ MÜSAVAT
N 277 (7166) 25 dekabr 2018



# "Ermənilər Paşinyandan üz çevirə bilər"

**Politoloq:** "Hazırda Ermənistan iqtisadiyyatında və insanların sosial həyatında Paşinyandan əvvəlki eyni vəziyyət hökm sürür"

**Nikol Paşinyanın liderlik etdiyi partiyanın Ermənistanda keçirilən parlament seçkilərində yüksək səslə qalib gəlməsi onu göstərdi ki, inqilabdan 7 ay keçməsinə baxmayaraq erməni xalqı hələ də bu adamın arxasınca gedir. Paşinyan hələ ki inqilab əhval-ruhiyyəsinin ona gətirdiyi dividentləri xərcləyir. Bəs erməni xalqı nə zamanadək Nikol Paşinyanın arxasınca gedəcək? Ondan üz döndərmə prosesi hansı halda başlaya bilər?**

**Politoloq Məhəmməd Əsədullazadə** "Yeni Müsavat"a bildirdi ki, Ermənistanda Nikol Paşinyanın növbədənkənar parlament seçkilərində qalib gəlməsi gözlənilən idi. Çünki baş verən inqilab sosial etirazların nəticəsi idi. Xalq da Paşinyandan iqtisadi və sosial vəziyyəti yaxşılaşdırmaq üçün onun legitimliyini seçkilərdə bərpa etdi. Paşinyan daima xalqa iqtisadi vəziyyəti yaxşılaşdıracağı, investorları cəlb edəcəyi, xaricdəki erməni iş adamlarının ölkəyə sərmayə qoyacağını qeyd edirdi. Hətta onun "Mənim addımım" blokunun "beş illik" fəaliyyətində iqtisadi inkişafa aparacaq islahatlar paketi də qəbul edilib. Xalq da hələ ki gözləyir: "May ayından başlayaraq demək olar ki, Nikol Paşinyan yalnız ölkəsində Robert Köçəryan və Serj Sərkisyana qarşı siyasi mübarizə aparıb. Onları siyasi səhnədən uzaqlaşdırmaqla məşğul olub. Demək olar ki, heç bir iqtisadi inkişafa imza atacaq proseslərə başlamayıb. Korrupsiya araşdırmaları və digər köhnə hakimiyyətin siyasətini təftiş etməklə məşğul olub. Çünki Ermənistanın iqtisadi inkişafa aparacaq hər hansı bir sahənin olmaması, onun bu kimi aladadıcı və görüntü xarakterli işlərlə məşğul olmasına gətirib. Qeyd edim ki. Ermənistan iqtisadiyyatında Rusiya hakim mövqedədir. Çünki iqtisadi blokadada olan və işğalçı siyasət aparan bir ölkədə hər hansı bir sahənin müstəqil şəkildə inkişafı mümkün deyil. Rusiya verdiyi kreditlər hesabına Ermənistanın infrastrukturunu ələ keçirib. Həmçinin sərhədlərinin bağlı olması xarici investorların buraya sərmayə qoymasının qarşısını alıb. Hazırda Ermənistan iqtisadiyyatında və insanların sosial həyatında Paşinyandan əvvəlki eyni vəziyyət hökm sürür. Artıq gələn ildən Rusiya da qazın qiymətini qaldıracağını qeyd edib. Bu da Paşinyana qarşı daxili etirazların formalaşmasına gətirib çıxaracaq. Xalq qazın qiymətinin aşağı düşməsini və sosial vəziyyətin yaxşılaşdırılmasını gözlədiyi bir halda vəziyyətin çətinləşdiyini gördükdə küçələrə axışacaq. Çox da uzaq olmayan gələcəkdə Ermənistanda əhalinin inqilabdan gözləntiləri tamamilə heçə enəcək. Bu da antiinqilab əhval-ruhiyyəsini meydana çıxaracaq və yeni dalğa Paşinyana qarşı olacaq".

**Politoloq hesab edir ki, Nikol Paşinyan ölkəsində iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün ilk növbədə Qarabağ münaqişəsinin həllinə töhfə verərək Türkiyə və Azərbaycanla sərhədlərin açılmasına nail olmalıdır. Paşinyanın xilas formulu bu ola bilər:** "Əgər bu proses baş verməsə, Ermənistan yerində sayacaq, heç bir inkişafa aparacaq islahatlar baş verməyəcək. Blokada şəraitində ölkədə iqtisadi islahatların keçirilməsi mümkün deyil. Heç bir yüksək gəlirli təbii sərvətə malik olmayan Ermənistanın bu vəziyyətdə inkişafı mümkün deyil. Qeyd edim ki, erməni diasporu da Ermənistana maliyyəni azaldıb, Rusiyadakı lobbidən maliyyə daxilolmaları məlum vəziyyətə görə dayanıb. Paşinyan gələn il çalışacaq ki, islahatlara getsin. Amma bu islahatlar nəticə verməyəcək. Əhalinin gələn ilin 6 ayından sonra hakimiyyətdən qəti gözləntiləri olacaq. Bu gözləntilər özünü doğrultmasa, sosial tələblərlə İrəvan küçələrini etiraz dalğası bürüyəcək. Qarabağ klanı bu etirazlardan Paşinyanın əleyhinə maksimum istifadə edəcək. Hesab edirəm ki, Paşinyan ölkəsinin dirçəldilməsini, hakimiyyətdən tez getməməsini istəyirsə, ilk növbədə işğalçı siyasətə son qoymalıdır. Yoxsa onu xalq sosial rifahı təmin edə bilməyəcəyinə görə cəzalandıracaq".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

**ABŞ-da keçirilən seçkilərə daha bir müdaxilə cəhdi olub. Milli Kəşfiyyat İdarəsinin direktoru Dan Kots dekabrın 21-də bəyan edib ki, Rusiya, Çin, İran və başqa ölkələr ABŞ-da keçirilmiş 2018-ci il aralıq seçkisində seçicilərə təsir göstərməyə çalışıblar. Lakin o əlavə edib ki, bu cəhdlərin seçkinin nəticələrini təsirləndirdiyini göstərən əlamətlər yoxdur.**

# ABŞ-da seçkilərə ikinci müdaxilə - bu dəfə siyahıda Rusiya, Çin və İran var

**Şahin Cəfərli:** "ABŞ Milli Kəşfiyyat rəhbərinin seçkilərə müdaxilə məsələsini gündəmə gətirməkdə əsas məqsədlərindən biri Rusiyaya qarşı son aylar bir qədər zəifləyən təzyiq siyasətini bərpa etməkdən ibarətdir"

**hökuməti, kəşfiyyat müvafiq təhlükəsizlik tədbirləri görüb, Konqresdə isə seçkiyə müdaxilə edə biləcək xarici dövlətlərə qarşı ağır sanksiyaların tətbiqi barədə çağırışlar səslənib. Nüfuzlu respublikaçı senator Marko Rubio demokrat həmkarı Kris van Hollen seçkilərə xarici müdaxilə ilə bağlı qanun layihəsi hazırlayıb. Ş.Cəfərli bildirdi ki, "Qırmızı xətlərin çəkilməsi yolu ilə seçkilərin** yat bunu açıqlamayıb".

**Maraqlıdır ki, ilk baxışdan sadalanan 3 ölkənin birgə fəaliyyət göstərdiyi ehtimal olunsa da, ehtimallara əsasən ölkələr fərqli siyasi qrupları dəstəkləyib:** "Ümumi şəkildə məlumdur ki, Çin və İran demokratların, Rusiya isə Tramp tərəfdarlarının, yeni respublikaçıların qələbəsində maraqlı idi. Çünki Çin və İran üçün demokratlarla dialoq qurmaq, ortaq dil tapmaq daha asandır. Demokratların dünyagörüşü və sülhə, anlaşmaya daha çox meylli olması buna imkan verir. İranın nüvə proqramı ilə bağlı anlaşma məhz demokrat prezidentin, yeni Obamanın dövründə əldə olundu. Pekin isə Trampa qədər ABŞ-ın Çinlə bağlı siyasətində üstünlük təşkil edən modernist nəzəriyyənin tərəfdarlarının yenidən güc qazanmasını arzulayır. Bu nəzəriyyəyə əsasən Çinlə iqtisadi əlaqələri inkişaf etdirməklə, qarşılıqlı asılılığı artırmaqla və onu qloballaşmanın tərkib hissəsinə çevirməklə Çinin daxili transformasiyasına, daha açıq desək, onun Qərb dəyərlərinə əsaslanan siyasi sistem qurmasına nail olmaq mümkündür. Çin uzun illər ABŞ-ın bu yanaşmasından yararlandı, beynəlxalq iqtisadi əlaqələrini genişləndirdi və sürətlə inkişaf etdi. Tramp gəldikdən sonra isə siyasi realizm daha çox ön plana çıxdı və Çin təhlükəsindən bəhs olunmağa başlandı. ABŞ hazırda Çinin iqtisadi və texnoloji liderliyi ələ keçirməsinə qarşı tədbirlər görür. Ticarət müharibəsi məhz bu məqsədə yönəlib. ABŞ-ın bu siyasətinin davam etməsi Çin üçün yaxşı heç nə vəd etmir. Artıq Çin iqtisadiyyatının inkişafında yavaşlama başlayıb və onlar neqativ tendensiyaların dərinləşməsindən əndişələnərək ABŞ-la anlaşmaq istəyirlər. Ona görə də Çin demokratların hakimiyyətə qayıtmasında maraqlıdır".

**Bəs Vaşinqtonun seçkilərə müdaxilə mövzusunu gün**dəmə gətirməsi nə ilə əlaqədardır? Ş.Cəfərli deyir ki, əsas məqsəd Rusiyaya təzyiqləri artırmaq ola bilər: "Mən düşünürəm ki, ABŞ Milli Kəşfiyyat rəhbərinin seçkilərə müdaxilə məsələsini gündəmə gətirməkdə əsas məqsədlərindən biri Rusiyaya qarşı son aylar bir qədər zəifləyən təzyiq siyasətini bərpa etməkdən ibarətdir. Bu məsələdə ABŞ-ın ənənəvi dövlət aparatı və Konqreslə Tramp arasında fikir ayrılığı var. İqtidara gəldikdən sonra Trampın Rusiyaya qarşı sanksiyaları gücləndirmək niyyəti yox idi, sadəcə olaraq, bu istiqamətdə Konqres və dövlət aparatının birgə fəaliyyətinə mane olmağa onun gücü atmadı. "Amerikanın düşmənlərinə qarşı sanksiyalarla təsir göstərmək" (CAATSA) adlı qanun layihəsi məhz bu dövrdə qəbul olundu. Lakin Tramp həmin qanunda nəzərdə tutulan sanksiyaları ya tətbiq etmir, ya da həvəssiz tətbiq edir. O, Sergey Skripalın zəhərlənməsi ilə bağlı sanksiyaların birincidən xeyli sərt olan ikinci mərhələsinin tətbiqinə də tələsmir. Ona görə də kəşfiyyat seçkilərə müdaxiləni gündəmə gətirməklə Rusiya təhdidini yenidən aktuallaşdırır və Konqresin administrasiya üzərində təzyiq qurmasına zəmin yaratmaq istəyir. 2019-cu ilin yanvarında Nümayəndələr Palatasının yeni tərkibi fəaliyyətə başladıqdan sonra bu istiqamətdə yeni gəlişmələr olacaq. Ümumiyyətlə, 2019-cu il ABŞ siyasi tarixinin ən qaynar illərindən biri olmağa namizəddir. Xüsusi prokuror Müllerin təhqiqatı bir neçə aya yekunlaşacaq. Bu təhqiqatın nəticələrindən asılı olaraq prezidentin impiçmenti gündəmə gələ bilər. Bir sözlə, ABŞ-da daxili gərginlik və çəkişmə öz apogeyinə çatacaq, bundan Rusiya da nəsibini alacaq".

"Amerikanın səsi"nin məlumatına görə, Dan Kots deyib ki, adları çəkilən ölkələr öz strateji maraqlarını həyata keçirmək üçün ABŞ-ı hədəfləyən təsir fəaliyyətləri və mesajlaşma kampaniyaları aparıblar.

**Lakin Kots əlavə edib ki, ABŞ kəşfiyyat icmasının təhqiqatı xarici elementlərin seçki prosesinə nüfuz edə bildiyinə dair heç bir dəlil aşkar etməyib:** "Hazırda kəşfiyyat icmasında ölkədə səsvermənin qarşısını alacaq, səs sayılmasını dəyişəcək şəkildə pozulduğunu göstərən əlamətlər barədə məlumatlar yoxdur".

Təhqiqatın nəticələri prezident Donald Trampa və seçki təhlükəsizliyinə cavabdeh başqa strukturlara təqdim edilib. Xatırladaq ki, bundan əvvəl ABŞ-da seçkilərə Rusiyanın müdaxiləsi iddiaları ortaya atılıb və ciddi siyasi qalmaqala səbəb olub. Hətta hazırkı ABŞ prezidentinin seçilməsində Rusiyanın roluna dair iddialar ortaya çıxıb. İndi isə növbəti dəfə, özü də yalnız Rusiya deyil, Çin və İranın da adı ABŞ-da seçkilərə müdaxilədə hallanır.

**Siyasi şərhçi Şahin Cəfərli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, 2016-cı il prezident seçkilərinə Rusiyanın müdaxiləsindən sonra ABŞ-da seçkilərin təhlükəsizliyinin təmin olunması məsələsi xeyli aktuallaşıb. Ekspert deyir ki, xarici xüsusi xidmətlərin seçkilərə müdaxiləsi nisbətən yeni hadisədir:** "Çünki daha əvvəl ABŞ iqtisadi, hərbi, biznes sektorlarına kiberhücum cəhdləri olub, lakin seçkilərə - yaxud bu ölkə siyasətçilərinin dili ilə desək, ABŞ demokratiyasına müdaxilə ilk dəfə idi baş verirdi. Ona görə də 2018-ci ilin noyabrında Konqresə keçirilən ara seçkilərdən əvvəl kibertəhlükəsizliyin təmin olunması və ehtimal edilən düşmənlərin çəkindirilməsi ciddi müzakirə mövzusuna çevrildi".

**Ş.Cəfərli deyir ki, ABŞ**



**təhlükələrdən müdafiəsi" (DETER Act) adlanan sənədə əsasən ABŞ-ın bütün kəşfiyyat orqanlarının fəaliyyətini əlaqələndirən Milli Kəşfiyyat direktoru seçkilərdən sonrakı 1 ay müddətində prosesə xarici müdaxilənin olub-olmadığı haqda öz rəyini hökumətə və Konqresə təqdim etməlidir. Ancaq seçkidən əvvəl həm vaxt azlığı, həm də Tramp administrasiyasının belə bir qanuna ehtiyac görməməsi səbəbilə layihə Konqresin təsdiqinə çıxarılmayıb:** "Lakin gördüyümüz kimi, Milli Kəşfiyyat direktoru Den Kouts həmin sənəddə qeyd olunduğu kimi, seçkilərdən sonra öz hesabatını təqdim edib. Hesabatda Rusiya, İran və Çinin seçkilərə müdaxilə etmək üçün kiberəməliyyatlar həyata keçirdikləri, lakin bunun nəticələrə hər hansı təsir göstərmədiyi bildirilir. Bu kiberəməliyyatların konkret hansı şəkildə gerçəkləşdiyi və adı çəkilən dövlətlərin nəyə nail olmaq istədiklərini bilmirik. Kəşfiyyat bunu açıqlamayıb".

❑ **Kənan RÖVSƏNOĞLU,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 277 (7166) 25 dekabr 2018



# Nikol Paşinyanı gözləyən kritik Rusiya səfəri

## Ermənistan hökumətinin çətin günləri başlanır; Moskva görüşündə Qarabağ müzakirələrinin olacağı istisna deyil; **politoloq:** "Paşinyanın açıqlamaları işğalın davam edəcəyini göstərir"

**Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan bu həftə Rusiyaya səfər edəcək. Xəbər verildiyi kimi, bu barədə Rusiya prezidenti Vladimir Putin Moskvada keçirdiyi illik mətbuat konfransında deyib.**




Rusiya liderinin cavabında diqqət çəkən bir sıra məqamlar Ermənistanda da geniş müzakirələrə səbəb oldu. Putin bir tərəfdən ikitərəfli əlaqələrdə uçub-dağılan heç nəyin olmadığını desə də, müzakirə olunmalı məsələlərin olduğunu vurğulayıb. Üstəlik, Ermənistanın sabiq rəhbərlərinin zamanındakı əlaqələrə istinad etməklə, faktiki olaraq, Paşinyan üçün "yol xəritəsi"ni nişan verib. Həm Robert Köçəryan, həm də Serj Sərkisyan birmənalı olaraq Rusiyaya itaət edən prezidentlər olublar. İndi Ermənistana rəhbərlik edən N.Paşinyanın və onun komandasının Qərbə inteqrasiya xətti tutması şübhəsiz ki, Putini razı sala bilməz. Deməli, 27 dekabrda reallaşmalı olan Rusiya səfəri N.Paşinyan üçün heç də asan keçməyəcək.

Ermənistanın hökumət başçısı Rusiya prezidentinin bir sıra suallarına açıq cavab verməli, həmçinin öhdəliklər götürməli olacaq. Təsadüfi deyil ki, Rusiya XİN başçısı bir müddət əvvəl Rusiya ilə Ermənistan arasında xarici hərbçilərin Ermənistana girişini məhdudlaşdırılmasını nəzərdə tutan sazişin hazırlandığını anons etmişdi. Xüsusilə də ABŞ-ın yüksək çinlisi Con Boltonun İrəvanda səsləndirdiyi bəyanatlardan sonra Kreml Ermənistanın "əl-ayağını" bir yerə yığmaqdan ötrü hərəkətə keçib. KTMT baş katibliyinin faktiki olaraq Ermənistandan alınması, Ermənistanın mövcud hökumətinə qarşı açıq hörmətsizlik, Paşinyanın seçkidəki qələbəsinin bir quru təbrikə belə layiq görülməməsi kimi faktlar işğalçı ölkədə geniş dartışılmaqdadır.

**Qarşıdakı səfərin ağırlığı həm də onunla əlaqədardır ki, Ermənistanın baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyan Rusiya prezidenti ilə təbii qazın qiymətini müzakirə edəcək. Hansı ki, bu müzakirələr dekabrın 6-sı Sankt Peterburq şəhərində baş tutmalı idi. "Rusiya prezidenti ilə qaz qiymətləri də daxil olmaqla bir sıra məsələlər müzakirə olunacaq. Hazırda heç nə deyə bilmərəm, hələlik razılaşmalar yoxdur" - Paşinyan Avrasiya İqtisadi İttifaqının Ali Şurasının iclasından öncə demişdi.**

Ermənistana satılan Rusiya qazının hər min kubmetri üçün qiymətin 2019-cu ilin 1 yanvarından etibarən 150 dollardan 215 dollara satılması gözlənilir ki, bu da İrəvan üçün fəlakətli perspektiv vəd edir. Lakin hələ son qərar verilməyib və Paşinyanın özünü bu səfərdə necə aparacağından çox şey asılıdır. Son müzakirələrdə erməni baş nazirin Putindən uzaq məsafədə əyləşdirilməsi, ondan öncəki Rusiya səfərində administrasiya əməkdaşları tərəfindən ona qarşı sayğısızlıq göstərilməsi bu dəfə də hansısa sürprizlərin ola biləcəyindən xəbər verir. Bundan öncə Paşinyanla S.Lavrov arasındakı söz savaşını, həmçinin Ermənistan hökumətinin təmsilçilərinin Putinin köməkçilərinə sərt reaksiyalarını xatırlamaq da lazım gəlir. Rusiya xarici işlər naziri açıqlamalarının birində demişdi ki, Ermənistanın yeni liderinin ölkəsində vəziyyətin inkişafı perspektivlərini necə qiymətləndirməsi Rusiya üçün çox vacibdir. İstənilən halda söhbət İrəvanın seçmək istədiyi yolla bağlıdır. İrəvan üzünü Qərbə tutursa, Rusiya da bu ölkəyə qazı dünya qiymətinə hesablayacaq.

Ancaq Ermənistanda hələ də ümidlər var ki, Rusiya özünün uzunillik forpostuna yenə güzəştə gedəcək. Erməni mediası yazır ki, əvvəllər tariflərin artırılması ilə əlaqədar erməni liderlər Moskvaya səfər edir, müəyyən razılaşmalar əldə olunurdu və bu dəfə də analoji vəziyyət yarana bilər.

**"Yeni Müsavat" erməni mediasına istinadən xəbər verir ki, ekspert Tevan Poqosyan iki ölkə arasındakı münasibətləri şərh edərkən bir sıra maraqlı detallara toxunub. Onun sözlərinə görə, Rusiya ilə Ermənistan arasındakı bir sıra sahələrdə boşluqlar var ki, onlar açıq şəkildə müzakirə olunmalıdır.** "Paşinyan və Putin oturub açıq müzakirələr apardığı kimi, digər sektorların nümayəndələri də danışıqlar aparmalıdır" - o bildirib.

Politoloq Suren Sarqsyan da onunla razılaşaraq deyib ki, yüksək səviyyədə danışıqlar yaxşı keçir, ancaq aşağılarda problemlər mövcuddur. Onun sözlərinə görə, Ermənistan-Rusiya münasibətlərinə təhdid yoxdur, amma ikinci eşelonda hakimiyyətlərin problemləri var. Ancaq Sarqsyan unudub ki, Rusiyanın birinci şəxsi Paşinyanı təbrik etməyib və KTMT ölkələrindən Qırğızıstanı çıxmaq şərtilə, digər ölkələr də hələlik İrəvana təbrik yollamayıb. Deməli, məsələ "aşağılar"lıq deyil. Ekspert qazın qiymətinə toxunarkən deyib ki, əvvəllər qaz tariflərinin dəyişdirilməsi qış mövsümündən sonra baş verirdi. "Yadımdadır, əvvəllər erməni liderlər Moskvaya gedirdilər və qaz tariflərinin artırılmasının 2-3 aylıq təxirə salınması barədə razılaşma əldə olunurdu. İstisna etmirəm ki, bu dəfə də eyni ssenari təkrarlanacaq" - politoloq deyib. Ancaq onu da o, etiraf edib ki, qaz amili Rusiyanın xarici siyasətində vacib alətdir. İstənilən halda sərt qış öncəsi qazın qiymətinin artırılması xərbərdarlığı ermənləri ciddi təşvişə salıb. Odur ki, nəzərlər Rusiyaya zillənib.

Türkiyə ilə əməkdaşlıq etmək niyyəti puç olan Paşinyan hökuməti Rusiyadan gördüyü soyuq münasibətlərin fonunda qonşu İranla əlaqələrin inkişaf etdirmək istəyir. N.Paşinyan deyib ki, İranla iqtisadi və siyasi əlaqələrin genişləndirilməsində maraqlıdır. Ancaq bir müddət öncə Paşinyan özü etiraf etmişdi ki, İran ətrafında yaşanan hadisələrlə əlaqədar bu ölkə ilə sərhədin bağlanacağı da istisna deyil. İndi İran investisiyasının Ermənistana yatırılmasında maraqlı olduğunu vurğulamaqla Paşinyan Qərbə də mesaj verir və onları Ermənistanı xilas etmək üçün hərəkətə keçməyə çağırır. Ancaq ortada Rusiya amili var. Bütün təhlillər onu göstərir ki, Ermənistan çıxılmaza dirənib və erməni ekspertlərin özlərinin etiraf etdiyi kimi, bu ölkə özünü təcrid edib. Təcriddən çıxmağın tək yolu var: Azərbaycan ərazilərinin işğalına son vermək! Xüsusilə də Rusiyanın əlini Ermənistanın üzərindən çəkməsi maraqlı və Azərbaycan üçün əlverişli situasiya yarada bilər.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a açıqlamasında ki, Rusiyanın Paşinyanı sıxışdırmasından çox da ümidli nəticələr çıxarmadığını vurğuladı:** "Kreml Paşinyandan narazı ola bilər, ancaq Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həllinə müsbət yanaşacağını da proqnozlaşdırmıram. Qazın qiymətlərinin qaldırılması Serj Sərkisyanın dövründə də baş verib. Ancaq bu, heç nəyi dəyişməyib".

**Bununla yanaşı, E.Şahinoğlu Qarabağ klanı ilə Ermənistan hakimiyyəti arasında yaşananlara diqqət çəkdi. Qeyd etdi ki, Ermənistan hakimiyyətində Qarabağ klanının yerinə Nikol Paşinyanın möhkəmlənməsi bizim üçün məqbuldur:** "Azərbaycan prezidenti İlham Əliyev son çıxışında qeyd etdi ki, Ermənistanda Qarabağ klanının hakimiyyətdən uzaqlaşdırılmasında Azərbaycanın da rolu var. Çünki İlham Əliyev hər çıxışında Qarabağ klanını kriminal hakimiyyət adlandırırdı və Ermənistan cəmiyyəti də sonda bu fikri qəbul etdi. Ona görə də İlham Əliyev ümid edir ki, yaxın müddətdə Qarabağ münaqişəsinin həllində irəliləyiş mümkündür. Nikol Paşinyan Azərbaycan torpaqlarının işğalında iştirak etməyib. Yəni rəsmi Bakı haradasa Nikol Paşinyanla danışıqlardan müsbət nəticəyə müəyyən qədər ümidlidir. Mümkündür ki, 2019-cu ildə iki ölkənin lideri bir neçə dəfə görüşsün. Ancaq bu görüşlərdən nəticə çıxması üçün Nikol Paşinyanın mövqeyi dəyişməlidir. Nikol Paşinyan "Qarabağ separatçıları da danışıqlarda iştirak etsin" tələbindən imtina etməlidir. Paşinyanın Qarabağla bağlı mövqeyi eks-prezidentlər Robert Köçəryanın və Serj Sərkisyanın mövqeyindən fərqlənməyə də bilər. Yəni Paşinyanın mübarizə apardığı Köçəryanın və Sərkisyanın Qarabağ siyasətini davam etdirməsi mümkündür. Bu halda Bakı ilə İrəvan arasındakı danışıqların nəticəsi olmayacaq. Deməli, rəsmi Bakı da mövqeyini sərtləşdirəcək".

**Politoloqun sözlərinə görə, hələ ki Paşinyan Azərbaycanla sülhə ümid verən heç bir açıqlama verməyib. Tam əksinə, Paşinyanın açıqlamaları işğalın davam edəcəyini göstərir:** "Paşinyan gələn il Qarabağ münaqişəsinin həllində heç bir addım atmayacaqsa, rəsmi Bakı üçün Ermənistanda hakimiyyətdə kimin olmasının heç bir fərqi olmayacaq. Əsas odur ki, Ermənistan hakimiyyətindəki şəxs işğal altındakı torpaqları azad etməyə hazır olsun".

**E.Şahinoğlu onu da qeyd etdi ki, son bir neçə aydır cəbhə bölgəsində sakitlikdir, atəşkəsin pozulması halları minimuma enib:** "Bu, rəsmi Bakının Nikol Paşinyana verdiyi bir şans idi. Rəsmi Bakı istəyirdi ki, Ermənistanda parlament seçkisində Paşinyana problem yaratmasın. Paşinyan bundan istifadə edərək Qarabağ klanını həm hakimiyyətdən, həm də parlamentdən uzaqlaşdırdı. Paşinyan qısa müddətdə hökuməti formalaşdıracaq. Bundan sonra rəsmi Bakı 2019-cu ilin birinci yarısında Paşinyanın Qarabağ münaqişəsinin həllində addım atmasını gözləyəcək. Belə bir addım atılmasa, bölgədə vəziyyət gərginləşəcək, Azərbaycan ordusu fəallaşacaq".

Heç şübhəsiz, Putin-Paşinyan görüşündə Dağlıq Qarabağdan da danışılacaq. Rusiya rəhbərliyinin Ermənistanın mövcud hakimiyyətindən eşitmək istədiyi məsələlər var və yəqin ki, bununla bağlı konkretlik tələb olunacaq. Əks təqdirdə, Paşinyanın danışıqların formatının dəyişdirilməsi kimi cəhdləri davam edəcək. Dağlıq Qarabağda status-kvonun qalması nəinki bölgə üçün, hətta artıq dünya üçün təhdid sayılır. Necə ki, Amerika nəşri III Dünya müharibəsinin hətta Dağlıq Qarabağdan da başlaya biləcəyi barədə xəbərdarlıq edib. N.Paşinyanın davranışları savaşı tətikləyə və Azərbaycanın "ildırımsürətli hücum"a keçib əraziləri qaytarması ilə nəticələnə bilər ki, Rusiya bunu qətiyyən istəmir. Hər halda, N.Paşinyana seçkiləri rahat keçirməyə şans yaradan Düşənbə anlaşması Putinin təşəbbüsü ilə əldə olunmuşdu. Azərbaycan konstruktiv mövqe gözləyir və səbri tükənməz deyil, bunu Rusiyada da yaxşı bilirlər. Belarus prezidenti Aleksandr Lukaşenko bu günlərdə xatırlatmışdı ki, vaxtilə S.Sərkisyana 5 rayonu azad etməyi təklif etsələr də, bundan imtina etmişdi. Bu mesaj əslində Paşinyana ünvanlanıb. Yəni Sərkisyanın taleyini yaşamaq istəmirsənsə...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

Yeni MÜSAVAT
N 277 (7166) 25 dekabr 2018

**İkinci Dünya müharibəsinin başa çatmasından bəri dünya iri nəhənglər arasında açıq hərbi toqquşmadan yayına bilib. Amma son vaxtlar beynəlxalq aləmdə qlobal təhdidlərin getdikcə kəskinləşməsi böyük müharibə təhlükəsini artırıb.**

# "Azərbaycan və Türkiyə Qərb üçün Ermənistandan daha vacib dövlətlərdir"

## "3-cü dünya müharibəsi Qarabağdan başlaya bilər"

Virtualaz.org xəbər verir ki, bu barədə "The National İnterest" jurnalında dərc edilmiş məqaləsində ABŞ Ordu Kollecinin professoru Robert Farli proqnozlarını açıqlayıb. Məqalədə 2019-cu ildə üçüncü dünya müharibəsinin başlaya biləcəyi beş yer göstərilir ki, onlardan biri də Azərbaycandır. Onun fikrincə, Rusiya və Baltikyanı ölkələr, Ermənistan və Azərbaycan arasında, həmçinin Kəşmir və ya Venesueladakı münaqişələr səbəbindən böyük müharibə başlaya bilər.

Professorun bu açıqlamaları geniş müzakirələrə səbəb olub. Xüsusilə üçüncü dünya savaşının başlaya biləcəyi ehtimalları barədə müxtəlif fikirlər səslənməkdədir. Eyni zamanda ikinci Qarabağ müharibəsi başlarsa, yeni dünya savaşına çevrilə bilib-bilməyəcəyi yönündə fərqli mövqelər sərgilənir. Ekspertlər "Böyük Ermənistan" xülyası səbəbindən bu ehtimalların çoxala biləcəyini qeyd edirlər.




**Politoloq Əhəd Məmmədli yaxın zamanlarda bu müharibənin başlayacağını düşünmür:** "Üçüncü dünya savaşından çox danışılır. Düşünürəm ki, yaxın zamanlarda bu baş verən deyil. Bu iddiada bulunanlar da, bunu təkzib edənlər də var. Atom bombasının olması həm də üçüncü dünya müharibəsinin qarşısının alınmasına bir nədəndir. Nüvə ölkələri bununla bir-birilərini dayandırırlar. Atom ölkələri bu silahla bir-birilərinin qarşısını alırlar. Lakin nə vaxtsa böyük müharibənin olmayacağına heç kəs zəmanət verə bilməz. Dünyada baş verən lokal müharibələr gələcəkdə növbəti dünya müharibəsinə çevrilə bilər. Düşünürəm ki, politoloq bunu nəzərdə tutur. Lokal münaqişələr, iqtisadi müharibələr, terror aktları, sosial qarşıdurmalar, dünyanı bürüyən bütün bu gərginliklər gələcəkdə üçüncü dünya müharibəsinə səbəb ola bilər. Dağlıq Qarabağda müharibə heç vaxt üçüncü dünya müharibəsinə səbəb ola bilməz. Böyük güclər Azərbaycan və Ermənistana görə bir-biri ilə müharibə edən deyil, özü də dünya müharibəsi. Türkiyə və Rusiya üz-üzə gələ bilər. Amma bunun üçün gərək ya Rusiya Azərbaycana, ya da Türkiyə Ermənistana hücum etsin. Düşünmürəm ki, Qarabağ müharibəsi olacağı təqdirdə Rusiya Azərbaycana, Türkiyə də Ermənistana hücum edəcək. Türkiyə-Ermənistan sərhədində rus əsgərləri durur. Qarabağ müharibəsi olacağı təqdirdə Rusiyanın Azərbaycana ola biləcək hücumunu minimuma endirmək üçün Azərbaycan-Rusiya sərhədində də türkiyəli əsgərlər durmalıdır. Həmçinin Türkiyə-Rusiya münasibətləri üst səviyyəyə getdiyi vaxtda Azərbaycan Qarabağ problemini öz xeyrinə həll etməyi bacarmalıdır. Tarix boyu Türkiyə-Rusiya münasibətlərinin yaxınlığı Azərbaycan üçün müsbət nəticələnib. Bu yaxınlıq Azərbaycana qarşı Rusiya təhlükəsini azaldır. Rusiya təhlükəsi azaldıqca Qarabağ müharibəsini etmək imkanları da Azərbaycan üçün çoxalır. İkinci Qarabağ müharibəsi üçüncü dünya savaşına səbəb olan deyil. İkinci Qarabağ savaşına Azərbaycan və Ermənistandan başqa uzağı Türkiyə ilə Rusiya qoşula bilər. İndiki halda isə bu inandırıcı deyil. Yuxarıda qeyd etdiyim kimi, Türkiyə-Rusiya münasibətləri yüksək səviyyədədir. Bir də ki, Rusiya təhlükəsini azaltmaq üçün Azərbaycana Türkiyə hərbi bazaları yerləşdirilməlidir. Naxçıvan və Abşerondan başlamaq lazımdır. Üstəlik, Azərbaycan, Rusiya sərhədinə türk əsgərləri dəvət edilməlidir. Türkiyə-Ermənistan sərhədini ruslar qoruyursa, buna cavab olaraq Azərbaycan-Rusiya sərhədin də türk əsgərlər qorusun".

**Politoloq xristian dünyasının tarix boyu gerçəkləşdirməyə çalışdığı "Böyük Ermənistan" planından da söz açdı:** "Xristian dünyasının böyük Ermənistan qurmaq planı olub, amma bunu gerçəkləşdirə bilməyiblər. Gerçəkləşdirə bilməmələrinin səbəbi çoxdur. Məsələn, Anadoluda türklər və kürdlərin buna direnişi, Qərb və Rusiya üçün "Böyük Ermənistan"ın əsas hədəf olmaması və s. İrana gəldikdə isə bu ölkəni nə Qərb, nə də Rusiya heç vaxt təhdid altında saxlamayıb. Əksinə, İrana, Türkiyəyə qarşı daim dəstək olublar. Çünki tarix boyu İran həmişə Avropa və Rusiya üçün lazım olub. İranın da Azərbaycanın düşməni Ermənistanla çox isti münasibətləri var. Ermənistana görə nə ABŞ, nə Avropa, nə də Rusiya nəinki Türkiyə ilə, heç Azərbaycanla da müharibə edən deyillər. Qərb də Ermənistana görə nə Türkiyə, nə də Azərbaycanla müharibə edən deyil. Azərbaycan və Türkiyə Qərb üçün Ermənistandan daha vacib dövlətlərdir. Əlxüsus da Türkiyə güclənməkdə davam etdikcə, Qərb daha tez erməniləri türklərlə üz-üzə qoyub gedəcək. Ermənistanın son və yeganə ümidi Rusiyadır. Son ümid Rusiyada da hər an erməniləri tərk edə bilər. 1915 kabusunu ermənilər gec-tez yenə yaşayacaqlar. Ermənistana görə müsəlman dünyası ilə xristian dünyası üz-üzə gələn deyil. Ermənistanın xristian dünyası üçün nə mənəvi, nə də milli dəyəri yoxdur. Ermənistanın arxasında duran yeganə güc Rusiyadır. Ruslar da erməniləri yüz il bundan əvvəl qoyub getdikləri kimi yenə də qoyub gedəcəklər".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Amerika Suriyadan çıxırmı...

## Vaşinqtonun addımı kürdləri çətin vəziyyətə salıb, Suriya kürdləri Dəməşq və Ankara arasında seçim etməli olacaq

**ABŞ müdafiə naziri Ceyms Mettis Suriyadan ABŞ hərbçilərinin çıxarılmasına dair əmri imzalayıb. ABŞ ordusunun Suriyadan çıxarılması ilə bağlı qərarı prezident Donald Tramp ötən həftə, dekabrın 19-da elan edib. Qərara əsasən Suriyadakı mövcud 2 min nəfərlik ABŞ hərbi kontingenti və Dövlət Departamentinin işçiləri 60-100 gün ərzində mərhələli şəkildə Suriyanı tərk edəcək. Artıq Dövlət Departamentinin işçiləri Suriyadan çıxarılıb.**



Ancaq Trampın bu qərarı Vaşinqtonda və dünyanın başqa yerlərində narazılıqla qarşılanıb. Nüfuzlu senatorlar, bir sıra media orqanları qərarı tənqid edərək ABŞ-ın Yaxın Şərqdəki nüfuzunun zəifləyəcəyi, bunun əvəzində İran, Rusiya kimi ölkələrin mövqelərinin güclənəcəyini bildiriblər. ABŞ prezident aparatının rəhbəri vəzifəsini icra edən Mik Mulvani bazar günü ABC televiziyasına bildirib ki, prezident Donald Tramp Suriyadan Amerika hərbi qüvvələrini çıxarmaqla bağlı fikrini dəyişmək niyyətində deyil.

Sitat: "Məncə, prezident elə lap əvvəldən bildirmişdi ki, o bizim Suriyada daimi qalmağımızı istəmir. Siz indi iki ildəki işin nəticəsini görürsünüz".

Qeyd edək ki, Trampın Suriya qərarı komandada artıq iki istefaya səbəb olub. Əvvəlcə müdafiə naziri Cim Mattis istefaya gedəcəyini bəyan edib. Artıq müdafiə nazirinin istefasını prezident də qəbul edib. Daha sonra isə ABŞ prezidentinin İŞİD-ə qarşı mübarizə koalisiyasındakı xüsusi nümayəndəsi Brett MakGörk istefasını elan edib. Ancaq Trampın komandası bu istefalardan narahat deyil.

Bu arada Fransa prezidenti Emmanuel Makron bazar günü Trampın hərbi qüvvələrin Suriyadan çıxarılması qərarına görə "dərin təəssüf hissi" keçirdiyini bildirib. Məsələ ondadır ki, ABŞ və Fransa ordusu Suriyanın şimalında birgə fəaliyyət göstərir və fransızların Suriyanın şimalında 5 hərbi bazası var. İndi isə ABŞ ordusu, deyildiyi kimi, Suriyanı tərk etdikdən sonra Fransanın da seçimi qalmır. Fransızlar ehtimal ki, amerikalıların ardınca Suriyanı tərk etməyə məcbur olacaqlar. Çünki Fransanın Suriyada müstəqil fəaliyyət göstərəcək və mümkün hərbi müdaxilələrə cavab verəcək səviyyədə hərbi gücü yoxdur. Ancaq fransızlar Suriyanı tərk edərsə Parisin regiondakı nüfuzu xeyli zəifləyəcək. Məsələ ondadır ki, Suriya ötən əsrin əvvəlində 25 ildən çox müddətdə Fransanın mandatlıq ərazisi olub və bu regionda, xüsusən də Suriya və Livanda Fransanın ciddi təsiri olub. Ancaq Suriyada inqilab baş verdikdən sonra Paris açıq şəkildə Əsəd əleyhdarlarını dəstəkləyib və rəsmi Dəməşqə qarşı cəbhədə yer alıb. Fransanın Suriyada hazırda əsas təsir gücü kürdlərdir. Fransa Suriyanın şimalını tərk edərsə, bu təsirini də itirəcək. Bu səbəbdən də Makron ABŞ ordusunun çıxmasından amerikalı siyasətçilərdən daha çox narahatdır.

Tramp isə qərarından məmnundur. ABŞ prezidenti deyib ki, ABŞ Yaxın Şərqdə polis olmaq istəmir. O əlavə edib ki, ABŞ-ın Suriyadakı mövcudluğu dəyərli həyatlar və trilyonlarla dollar itkisindən başqa bir şey deyil. Prezident Rusiya, İran və Suriyanın İŞİD-in yerli düşmənləri adlandıraraq, onların işini ABŞ-ın gördüyünü qeyd edib.

Yeri gəlmişkən, ötən həftə sonu ABŞ və Türkiyə prezidentləri arasında medianın yazdığına görə "uzun uzadı" telefon danışığı olub. Tramp twitterdə yazıb ki, Ərdoğanla Suriyadakı ortaq maraqları, eləcə də Amerika əsgərlərinin bölgədən çıxarılması mövzusunu müzakirə edib. Tramp yazıb ki, Türkiyə prezidenti Ərdoğan ona Suriyada qalan İŞİD qalıqlarının Türkiyə tərəfindən yox ediləcəyini söz verib. Sitat: "O, bunu edə biləcək biri. Üstəlik, Suriyanın qapı qonşusu. Hərbçilərimiz evlərinə qayıdır".

Bununla belə, Vaşinqtonda və dünyanın başqa ölkələrində Trampın məlum Suriya qərarı kürdlərin köməksiz buraxılması kimi qiymətləndirilib. Kürd silahlıları da ABŞ prezidentinin qərarını uğursuzluq kimi qiymətləndiriblər.

Ancaq ABŞ ordusu Suriyadan çıxmasına baxmayaraq hələ də Suriyanın şimalında, o cümlədən Menbic rayonunda patrul fəaliyyətini davam etdirir. Bu barədə Rusiyanın "Sputnik" agentliyinə yerli əhalidən olan şahidlər məlumat verib. Şahidlər bildirib ki, ABŞ ordusu patrulları Suriyanın şimalında hazırda Azad Suriya Ordusu qüvvələrinin nəzarətində olan Əl-Aun bölgəsindən gəldiyi və kürdlərin də daxil olduğu Suriya Demokratik Qüvvələri adlı koalisiyanın döyüşçüləri ilə birlikdə patrul həyata keçiriblər. Yayılan videoda amerikalı hərbçilərin Menbicin Cisr əs-Sarb küçəsi ilə hərəkət etdiyi görünür.

Türkiyə hökuməti isə ötən həftə Menbic əməliyyatının dayandırıldığını bəyan etsə də, Qərb mediası Türkiyə silahlı qüvvələrinin Menbic yaxınlığına qüvvə göndərdiyini yazıb. Əlbəttə, indi Vaşinqton anlaşmasının necə işləyəcəyi maraq doğurur. Tramp-Ərdoğan danışıqlarından belə anlaşılır ki, Tramp Menbici Türkiyəyə təslim etməkdə qərarlıdır. Ancaq bütövlükdə kürdlərin taleyi ABŞ ordusu çıxdıqdan sonra müəyyən olunacaq. Kürdlər ya Türkiyə ilə anlaşmalı, ya da Suriya hökumət qüvvələrini, yəni Bəşər Əsədin hakimiyyətini qəbul etməli olacaq. Birinci variant, yəni kürdlərin Türkiyə ilə anlaşması daha az ehtimaldır, çünki Ankara PYD və onun hərbi qanadı YPG-ni terrorçu elan edib. Bu mənada kürdlərin daha çox Bəşər Əsədlə anlaşmağa çalışacağı ehtimal oluna bilər. Ancaq bu halda böyük ehtimalla kürdlər muxtariyyət arzularından əl çəkməli olacaq. 3-cü variant isə Vaşinqtonun təklif edəcəyi hansısa variant ola bilər. Ancaq istənilən halda hazırkı situasiyada kürd siyasətçiləri Türkiyə və Suriya hakimiyyəti arasında seçim etməli olacaqlar. Təbii ki, bu zaman Rusiyanın da mövqeyi təsirli olacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

**Turizmin inkişafını prioritet elan etmiş Azərbaycanda başa çatmaqda olan il bu sahədə müstəqil dövlət qurumunun formalaşdırılması ilə yadda qaldı. Prezidentin fərmanı ilə yaradılan Dövlət Turizm Agentliyi işini qurmağa, müəyyən istiqamətlərdə turizm siyasətinin icraçısı qismində addımlar atmağa başladı.**

# Azərbaycan turizminin 1 ildəki nailiyyətləri

## Bahalıq və xidmət səviyyəsindəki problemlər həll olundumu?

**Agentliyin mətbuat katibi Kənan Quluzadə**nin "Yeni Müsavat"a dediyinə görə, bu ilin 11 ayında Azərbaycana 2,5 milyon nəfər xarici vətəndaş gəlib. Bu, ötənilki göstərici ilə müqayisədə 6 faizdən də çoxdur. Gələnlərin 50 faizə yaxını Rusiya və Gürcüstan vətəndaşları olub - 30 faizə yaxını Rusiyadan gəlib. Bu iki ölkədən gələnlərin arasında soydaşlarımız üstünlük təşkil edib: "Biz onların hamısını klassik turist hesab etmirik, çünki onlar turistik xidmətlərin hamısından tam istifadə etmirlər, çoxusu öz ata evlərində qalırlar. Biz Miqrasiya Xidmətindən sərhədkeçməyə dair məlumatı alırıq. ÜmumdünyaTurizm Təşkilatının standartlarına uyğun gələnləri turist kimi qeydə alırıq. Tələbələri, Azərbaycanda uzunmüddətli iş fəaliyyəti ilə məşğul olan xarici vətəndaşları, sərhədyanı bölgələrdən Azərbaycana gələn müxtəlif ölkələrin vətəndaşlarını turist hesab etmirik".

### İrana qarşı sanksiyalar və Azərbaycan turizmi

**Qeyd edək ki, Rusiyadan gələnlərin sayı 4 faiz, Gürcüstandan gələnlərin sayı 13 faiz artıb. Rusiyadan 817 min nəfər, Gürcüstandan 550 min nəfər gəlib. Ən böyük artım Yaxın Şərq və Asiya ölkələrindən gələnlərdə olub. Yaxın Şərqdən gələnlər 39 faiz, Asiyadan gələnlər 56 faiz artıb. Birləşmiş Ərəb Əmirliklərindən 80 min, Səudiyyə Ərəbistanından 70 min, İraqdan 64 min nəfər gəlib. Pakistandan Azərbaycana 37 min nəfərdən çox, Qazaxıstandan 35 min, Hindistandan 35 min, Türkmənistandan 25 min nəfər gəlib. Agentlik Asiya istiqamətindən turist axınının getdikcə artacağını gözləyir:** "İrandan gələnlər ciddi şəkildə azalıb. Sanksiyalar altında olduğuna görə valyuta əldə etmək imkanları minimuma enib. Buna görə də İrandan gələnlərin sayı 33 faiz azalıb. Ötən ilin 11 ayında bu ölkədən Azərbaycana 341 min nəfər gəlmişdisə, bu ilin eyni dövründə bu rəqəm 227 min nəfərə düşüb. İrandan gələnlər indiyədək turistlərin ümumi tərkibində 3-cü yeri tuturdular. 2018-ci il struktur yenilikləri ili oldu. Aprel ayında Dövlət Turizm Agentliyi yaradıldı, sentyabrda onun strukturu təsdiq olundu. Oktyabrda biz ilk turizm sammitini keçirdik, Azərbaycanın yeni turizm brendi nümayiş olundu. Noyabrda bu brendin ilk beynəlxalq nümayişi keçirildi. Dekabr ayından Azərbaycanın 6 ölkədə ilk olaraq ödənişli turizm nümayəndəlikləri fəaliyyətə başladı. Bunlar Çin, Hindistan, BƏƏ, Səudiyyə Ərəbistanı, Almaniya və Rusiyadır. Azərbaycanın yeni turizm konsepsiyası hazırlanaraq təqdim olundu. Konsepsiya turizmin inkişafı üzrə 2016-cı ildə imzalanmış strateji yol xəritəsinə əsasən hazırlanıb. Konsepsiyada konkret hədəflər müəyyənləşdirilib. Yaxın illərdə Azərbaycana gələn turistlərin sayı iki dəfə artırılacaq, Azərbaycan Qafqaz və region ölkələri arasında aparıcı turizm məkanına



çevrilməlidir. Yaxın 10 il ərzində turizm Azərbaycan iqtisadiyyatının ikinci aparıcı istiqamətinə çevrilməlidir".

**K.Quluzadə deyir ki, turizm sahəsində təhsil sisteminin inkişafına böyük diqqət yetirilir:** "Agentliyin tabeliyində 3 təhsil ocağı var: Azərbaycan Turizm və Menecment Universiteti, Mingəçevir Turizm Kolleci və Bakı Turizm-Peşə Məktəbi. İlk olaraq universitetdə islahatlara başlamışıq. Əsas məqsədimiz şəffaf bir struktur yaratmaqdır. İstəyirik ki, tələbə-müəllim heyəti arasında sağlam münasibətlər olsun, universitetin elmi-pedaqoji potensialından səmərəli istifadə edilməklə təhsilin bütün pillələrində biznesin maraqlarına cavab verən mütəxəssislər yetişdirilsin. Bu gün ölkədə turizm sahəsində kadr azlığı var. Bu, ofisiant və sair səviyyəsindən başlayaraq menecer səviyyəsinədək açıq hiss olunur. Bu baxımdan, turizm sahəsində kadrlara böyük ehtiyaclar var.

Bundan əlavə, 18 prioritet bazar seçilib. Həmin bazarlar üzrə marketinq araşdırmalarına başlamışıq. Bütün nəqliyyat vasitələri üzrə şirkətlərlə, dövlət qurumları ilə danışıqlar aparılır ki, Azərbaycana gəlmək daha rahat və əlçatan olsun, müxtəlif bazarlardan ölkəmizə birbaşa uçuşların sayı artırılsın. Xarici portnyorlarla işləri gücləndiririk. Yeni 9 prioritet istiqamət müəyyənləşib, bunların hər biri üzrə gərgin işləyirik".

### Turizm şirkətlərinin işinə nəzarət mexanizmi yaradılır

**Bu gün Azərbaycanda turizm şirkətlərinin işinə nəzarət istiqamətində fəaliyyətlərə ehtiyac var:** "Bilirsiniz ki, 2 mindən çox turizm şirkəti var. Onların heç də hamısının fəaliyyəti üzərlərinə götürmək istədikləri xidmətlər səviyyəsinə uyğun deyil. Onların bəzilərinin vəd etdikləri xidmətləri təqdim edə bilməmələri ölkəmizin turizm imicinə böyük ziyan vurur. Hazırda bununla bağlı mexanizm üzərində işləyirik".

**Agentlik rəsmisi hesab edir ki, ümumilikdə, 2018-ci il Azərbaycanın turizm sənayesinin formalaşmağa başlaması ili oldu:** "Əslində biz Azərbaycanın turizm sənayesini indi formalaşdırırıq. Yaxın 5 ildə indi başladığımız işlərin bəhrəsini daha çox görəcəyik. Turist gəlişində artımlar 5-6 faiz deyil, daha yüksək rəqəmlərlə ifadə olunacaq".

**Qeyd edək ki, Azərbaycan Turizm Assosiasiyası olduğu halda bu yaxınlarda agentliyin dəstəyi ilə Hotellər Assosiasiyasının yaradılması turizm sektorunda çalışan ictimai birliklər arasında heç də birmənalı qarşılanmayıb. Çoxları bunu Dövlət Turizm Agentliyinin ATA-ya alternativ yaratması kimi dəyərləndirirlər. Bildirilir ki, agentlik bir sıra beynəlxalq turizm təşkilatlarında Azərbaycanı təmsil edən, uzun illərdən bəri turizm sahəsində fəaliyyət göstərən AZTA ilə əməkdaşlıq etmir, onun sektordakı rolunu kiçiltməyə çalışır.**

**K.Quluzadə isə bildirir ki, Agentlik heç bir ictimai quruma qarşı ayrı-seçkilik etmir:** "Assosiasiyalar çoxdur. Onlar ictimai birliklərdir, biz onları dəstəkləyirik. İctimai nəzarət monopoliya altında ola bilməz. Hotellər istəyirlər ayrı assosiasiyada birləşsinlər, birləşirlər. Kimsə deyir ki, Turizm Assosiasiyası hər şeylə məşğul olmalıdır? Bir ictimai təşkilat yaradılanda o birindən soruşmalıdır ki, yaranım, yoxsa yaranmayım? Biz Hotellər Assosiasiyasının fəaliyyətinə dəstək veririk, bundan sonra da yaradılacaq ictimai qurumların fəaliyyətinə dəstək verəcəyik. Eyni zamanda bundan öncə yarananlara da dəstək veririk, o cümlədən də Turizm Assosiasiyasına da. Biz Hotellər Assosiasiyasına heç bir təşkilatın alternativi kimi baxmırıq, bütün ictimai təşkilatlarla əməkdaşlıq edirik, bundan sonra da edəcəyik".

**K.Quluzadə deyir ki, Azərbaycana gələn turistlər regionun digər ölkələrinə gələnlərdən daha çox pul xərcləyirlər:** "Son illərin tendensiyası bunu göstərir. Bu il üçün vəziyyəti Mərkəzi Bank tədiyyə balansını açıqladıqda məlum olacaq".

Qeyd edək ki, Mərkəzi Bankın açıqladığı tədiyə balansından aydın olur ki, bu ilin 9 ayında turizm xidmətləri ixracı 150 milyon dollara yaxın artsa da, turizm xidmətlərinin idxalı da 120 milyon dollar genişlənib. Yeni əcnəbilərdən turist kimi qazandığımız əlavə vəsaitləri elə öz vətəndaşlarımız da turist kimi xaricdə xərcləyib.

Mərkəzi Bankın məlumatına görə, 2018-ci ilin yanvar-sentyabr aylarında qarşılıqlı turizm xidmətlərinin dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,4 faiz artaraq 4,6 milyard dollar təşkil edib. Bu ilin ilk 9 ayında turizm xidmətləri üzrə profisit ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,8 faiz artaraq 370,3 milyon dollar (2017-ci ilin müvafiq dövründə 331,2 milyon dollar) təşkil edib.

Öz növbəsində xarici ölkələr tərəfindən Azərbaycan rezidentlərinə turizmlə bağlı göstərilən xidmətlərin dəyəri 1,3 milyard dollar məbləğində olub. Bunun 79 faizi Azərbaycan vətəndaşlarının şəxsi səfərləri ilə bağlı xarici ölkələrdə olarkən sərf etdikləri vəsaitlərin (məkik idxal üçün vəsaitlər istisna olmaqla) payına düşür.

### Bahalıq və xidmətdəki keyfiyyətsizliyi aradan qaldırmaq üçün...

**2018-ci ildə Azərbaycanın turizm sektorundakı iki mühüm problem olan qiymət bahalığı və xidmətdəki aşağı keyfiyyət məsələləri həllini tapmayıb. Hələ də ölkə vətəndaşları qonşu ölkələrdəki turizm qiymət və xidmətini ölkəmizdə tapa bilmirlər. Agentlik rəsmisi deyir ki, Azərbaycanda qiymətlərin baha olduğunu söyləmək düzgün deyil:** "Azərbaycanda son illərədək yalnız bahalı turizm inkişaf etdirilib. Yəni 4-5 ulduz hotellər, istirahət mərkəzləri yaradılıb. Belə obyektlərdə qiymət də yüksək olur. Azərbaycandakı 5 ulduz hotelin qiyməti ilə Gürcüstandakı 2-3 ulduz hoteli müqayisə etdikdə, əlbəttə ki, böyük fərq olacaq. Amma hər iki ölkədə 5 ulduz hoteli götürdükdə, qiymət bəlkə də bizdə daha ucuzdur. Xidmət səviyyəsinə gəlincə, Gürcüstan bizdən daha tez turizmin inkişafına başlayıb, onlarda kadr potensialı bizdən daha çoxdur. Bunu etiraf etməliyik ki, bizdə turizm sahəsində kadr çatışmazlığı var.

Bizdə son 2-3 ildir orta və aşağı büdcəli turizm obyektlərinin yaradılmasına başlanıb. Çünki turizmi inkişaf etdirmək üçün bütün büdcələrə uyğun xidmət təklif edilən yerlər olmalıdır. Buna görə də dövlət orta və aşağı büdcəli turizmin inkişafına böyük dəstək verir".

**Azərbaycan Turizm Assosiasiyası prezidentinin müşaviri Müzəffər Ağakərimov 2018-ci ildə turizm sahəsində bir sıra uğurlu nəticələrin əldə olunduğunu deyir:** "Biz Assosiasiya olaraq bu il 5 böyük sərgi təşkil etdik. Sərgilər nəticəsində Hindistandan, Çindən, Pakistandan, Qazaxıstandan, Sinqapurdan turistlərin Azərbaycana cəlb olunması daha da artıb. Aldığımız məlumata görə, gələn il Azərbaycanla Hindistan arasında birbaşa təyyarə reysi açılacaq. Bu isə Hindistandan ölkəmizə gələnlərin sayında artıma səbəb olacaq. Bu il yeni hotellər açılıb, yeni turizm şirkətləri fəaliyyətə başlayıb. Amma az büdcəli hotellərə tələbat böyükdür, onların sayı artırılmalıdır. Ölkəyə gələn turistlərin sayında artım var. Bu artımın yaxın illərdə daha yüksək olacağı gözlənilir. Bildiyiniz kimi, Azərbaycanda orta və aşağı büdcəli turizmin inkişafı istiqamətində mühüm işlər görülür. Bundan əlavə, turizm baxımından daha bir önəmli hadisə Qəbələyə dəmir yolunun çəkilməsinə başlanmasıdır".

**M.Ağakərimovun fikrincə, Azərbaycan turizmində bahalığın qarşısını almaq üçün əsas addım aşağı büdcəli hotellərin inşasıdır:** "Belə hotellər fəaliyyətə başladıqdan sonra qiymətlər istər-istəməz enəcək. Xidmət səviyyəsinə gəlincə, bu sahədə böyük işlər görülməlidir. Turizm kadrlarının hazırlanmasında kəmiyyət deyil, keyfiyyət amilinə üstünlük verilməlidir".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 277 (7166) 25 dekabr 2018

# Kasıblara ölüvay heyvanların verilməsinin pərdəarxası

## Vətəndaşların özünüməşğulluq proqramının icrasındakı qanunsuzluqlardan şikayətləri səngimir





**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi özünüməşğulluq proqramının icrası zamanı yol verilən qanunsuzluqlara növbəti dəfə münasibət bildirib. Nazirlik konkret faktlarla bağlı yayğın, ümumi sözlərlə münasibət bildirməklə vətəndaşlara verilən heyvanların dişsiz, qısır, bəzi hallarda qotur olmasının səbəbinin üzərindən sükutla ötür.**

**Nə baş verir?**

Niyə Azərbaycan dövlətinin vətəndaşa yönəlik olduqca əhəmiyyətli bir proyekti bu şəkildə reallaşdırılır?

Aydındır ki, dövlətin məqsədi vətəndaşı özünü maddi baxımdan təmin edəcək ailə təsərrüfatına sahib etməkdir. Layihə bu şəkildə icra ediləcəksə, özünüməşğulluq proqramının məqsədinə çatması real olmayacaq. Faktlar belə nəticəyə gəlməyə ciddi əsaslar verir.

**"Yeni Müsavat" yazdı, vətəndaşa 7 sağlam qoyun verib şükranlıq videosunu çəkdilər**

Nazirlik adından yayılan rəsmi açıqlamada isə vətəndaş Ariz Dəmirov ona verilən qoyunlardan razı olduğunu, "Yeni Müsavat"a şikayətindən sonra onun videosunu çəkdiklərini, həmin videoda da vətəndaşın razılıq etdiyini xüsusi vurğulayır.

**Bəs reallıq necədir?**

"Yeni Müsavat"ın 19 noyabr tarixli sayında "Məşğulluq Mərkəzinin qoyunlu oyunları - film kimi fırıldaq" sərlövhəli yazıda Goranboyun Əlirzalı kənd sakini Ariz Qnyaz oğlu Dəmirovun şikayətini dərc etmişdik. Vətəndaş ona Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Məşğulluq Mərkəzi tərəfindən verilən qoyunların qoca olmasından şikayətlənmişdi. Demişdi ki, özünüməşğulluq proqramı çərçivəsində ona gecəyarısı təhvil verilən qoyunlar qocadır və nazirdən kömək istəmişdi. Ariz Dəmirov dişsiz qoyunların artmayacağını, bu səbəbdən də özünüməşğulluq proqramından onun dolanışığını təmin etməsinin də sual altına düşəcəyini demişdi.

Şəkidən, Astaradan, Şamaxıdan da özünüməşğulluq proqramının icrası zamanı yol verilən qanunsuzluqlar haqda xəbərlər dərc etmişdik.

Goranboy rayonunda kasıb ailələrə verilən inəklərin fotolarına baxdıqda isə heyvana, sadəcə, adamın yazığı gəlir...

**"Gəldilər dedilər ki, səni polisə aparırıq"**

**Nazirliyin son rəsmi açıqlamasından sonra Ariz Dəmirovla yenidən əlaqə saxladıq.**

**Onun dediklərini təqdim edirik:**

- Qəzetinizdə yazı dərc olunandan sonra 7 qoyunu dəyişdilər. Gəldilər dedilər ki, səni polisə aparırıq. Dedim ki, mənə nə edəcəksiniz? Qanun mənim tərəfimdədir. Sonra dedilər ki, zarafat edirik. Məşğulluğun müdiri gəldi, xahiş elədi ki, heyvanların yanında dur, səni videoya çəkək, denən ki, heyvanlar cavandır, narazılığım, etirazım yoxdur. Çıxdılar getdilər. Bu yaxınlarda bir qoyun da öldü. Deyiblər ki, sabaha, birigünə gətirib başqasını verəcəklər.

**Vətəndaş israr edir: "Qoyunlar qocadır!"**

**Ariz Dəmirov deyir ki, qoyunlar yaşlıdır:**

- Nimdaş şeylərdir, təzədən biri də öldü, biri bala saldı. Qalmışam qoyunların əlində. Özlərinə deyirəm. Deyirlər ki, bizə də bunu ver deyirlər, veririk...

**Şamaxının Mərziyə kəndində Mikayıl Qibləli oğlu İsmayılov da ona verilən qoyunların təhvil-təslim aktında yazılanlara uyğun olmadığını, çarəsizlikdən həmin heyvanları təhvil aldığını deyir:**

- Heyvanları bizə 3 ay əvvəl verirdilər. Biz etiraz elədik, götürmədik. Bizə verilən heyvanların videosunu youtube kanalına yerləşdirdik. Bundan sonra bizə cavan heyvanlar verildi. Bizə əvvəlcə dişsiz heyvanlar verirdilər. Dedilər ki, tenderi udan şirkət verir heyvanları.

*- Yerli heyvanlar idi?*

- Yerli heyvanlar idi, ancaq qoca, yaşlı heyvanlardır deyə etiraz elədik.

*- Həmin heyvanları bazardan almışdılar?*

- Bazardan alanda biz gördük, videosunu çəkdik ki, bizə cənab prezident bu boyda dəstək göstərir, 4 min manat dəyərində bizə 21 heyvan ayırır. Siz bu 21 heyvanı elə bir vəziyyətdə gətirib verirsiz ki, onlar qışı çıxar-çıxmaz durumdadır. Sonra da deyəcəkdilər ki, bu heyvanlar necə oldu?

*- 4 min manat rəqəmini haradan götürmüsüz?*

- Bizimlə bağlanan müqavilədə, biznes-plan müqaviləsində dövlət tərəfindən bizə ayrılan puldur.

*- Biznes-planda 4 min manatın sizə nağd verməli olduğu yazılmışdı?*

- Biznes-planda yazılmışdı ki, 4 min manat dəyərində heyvan veriləcək.

*- Biznes-plandakı məbləğlə neçə qoyun almaq olar?*

- Heyvanın biri düşür 180-195 manata. 20 dişi qoyun və bir erkək verilməlidir.

*- Bəs həmin 4 min manata bazardan özünüz neçə qoyun ala bilərsiniz?*

- 4 min manatı bizim özümüzə versəydilər, onların verdiyi qoyunlardan qat-qat yaxşı heyvanlar ala bilərdik. Azı 25-30 dənə yaxşı heyvan ala bilərdik bazardan. Bazarda onların aldıqları heyvanların qiyməti 60-70 manatdır. Hələ həmin heyvanların ağzında dişləri olanlardır. Dişləri olmayanlar daha ucuzdur.

*- Bazarda qoyunların qiyməti həmişə belə ucuz olur?*

- Yaşlı heyvanlardır, dişləri yoxdur, ot, arpa yeyə bilmir.

*- Sizə verilən qoyunların qiyməti 60-70 manat göstərilir?*

- Sənəddə yazırlar ki, ümumi qiymət 4 min manatdır. Halbuki 4 min manat dəyərində heyvanı biz görmədik.

*- Sizə verilən qoyunları bazara çıxarsanız, satışından nə qədər gəlir əldə etmək olar?*

- 3 min, maksimum 3 min 200 manat. Əvvəl vermək istədiklərinə baxanda indikilər qismən yaxşıdır.

*- Sizə o heyvanları nəyə görə veriblər?*

- İşsizik, veriblər ki, məşğul olaq. İşsizliklə bağlı müraciət etmişdik. İşsiz kimi Məşğulluq Mərkəzində qeydiyyata dayanmışdıq. Dedilər ki, ünvanlı sosial yardım yığışdırılacaq. Biz oxuduq, 1 il sonra da heyvanlar gəldi çıxdı.

*- Necə hesab edirsiz, sizə verilən 21 qoyunla özünüzü təmin edə biləcəksinizmi?*

- İndi verilən heyvanlarla bəli. İndiki heyvanlara baxırsan ki, pis-yaxşı, nəsə eləmək olar.

*- Təxminən nə qədər gəlir götürmək olar?*

- Bizə sənəd üzərində 20 dənə ana qoyun və yanında 20 quzu, 1 erkək qoç verilməli idi. Bizə balası olmayan 20 qoyun verdilər. Bizim də fikrimiz bu idi ki, qoyunun balasından, südündən gəlir əldə edəcəkdik. Bizə verilən biznes-planda belə idi. Biz ailəmizi bu halda dolandıracaqdıq. Sonra bunlar (ƏƏSMN rəsmiləri) da gəlib dedilər ki, sizə balası olan qoyunlar yox, 20 qoyun verəcəyik. Yəni hazırda bizə verilən qoyunların heç birinin balası yoxdur. Bizə doğar və ya yeni doğmuş qoyunlar verilməli idi.

*- 20 qoyun, 20 quzu və 1 qoç verilməli idi. Ümumilikdə 41 heyvan verilməli idi?*

- Bəli. Dövlətin biznes-planında elə yazılmışdı.

**"Məcbur götürməli olduq. Bundan da əlimiz çıxandan sonra..."**

*- Bəs elə yazılmışdısa, siz balası olmayan qoyunları niyə götürürdünüz?*

- Dedilər ki, götürürsüz götürün, götürmürsüz özünüz bilərsiz, üstündən bir xətt çəkəcəyik, qarşısına da yazacağıq imtina, çıxdı, getdi, qaytaracağıq geri.

*- Ümumiyyətlə heyvan verməyəcəklərini deyirdilər?*

- Bəli. Məcbur götürməli olduq. Bundan da əlimiz çıxandan sonra, lap şikayət elədik, yerlərdə şikayətə baxan var? Sözümüzü prezidentə çatdıra bilmirik, cənab prezident bilsə belə qalmaz məsələ. Yerli məmurlar öz bildiklərini edirlər...

**İpəkçi.info saytı da bu mövzuda "Kasıbları bir az da müflis etməyin yeni yolu: özünüməşğulluq proqramı!" sərlövhəli yazı dərc edib. Həmin yazıda qeyd olunur ki, 2018-ci il üçün özünüməşğulluq proqramı çərçivəsində respublika üzrə 7 min, Şəki rayonu üzrə isə 113 nəfər 40 saatlıq təlimlərə cəlb ediliblər. Təlimlərə cəlb edilənlər sonda biznes-plan tərtib edərək biznes-planlarını müdafiə ediblər, başqa sözlə, imtahan veriblər...**

**Yazıdan sitat:** "Şəki rayonunda təlimlərə cəlb edilənlərin əksəriyyəti heyvandarlıqla məşğul olmaq fikrində idi. Özünüməşğulluq proqramı çərçivəsində heyvandarlıqla məşğul olmağın şərtləri isə belə olub: Dövlət vətəndaşa 4 dana verir, vətəndaş həmin danaları kökəldib satmalıdır, əldə etdiyi pula xərcləri ödəməli, yenidən azı 4 dana almalıdır. Artıq pul qalarsa, şəxsi məqsədləri üçün xərcləyə bilər. Dövlət vətəndaşa 2 yanıbalalı inək verir, vətəndaş həmin inəkləri sata bilməz, amma inəyin südünü, inəyin südündən hazırladığı pendiri, yağı, inəklərin balalarını satıb xərcləri ödəməlidir, artıq pul qalsa öz şəxsi məqsədləri üçün xərcləyə bilər.

Dövlət vətəndaşa 20 toğlu verir, vətəndaş həmin toğluları kökəldib satmalıdır, əldə etdiyi pula xərcləri ödəməli, yenidən azı 20 toğlu almalıdır. Artıq qalan pulu isə şəxsi məqsədləri üçün xərcləyə bilər. Dövlət vətəndaşa 20 yanıbalalı qoyun və bir qoç verir, vətəndaş həmin qoyunları və qoçu sata bilməz, amma qoyunların südünü, qoyunların südündən hazırlandığı pendiri, qoyunların balalarını satıb xərcləri ödəməlidir, artıq pul qalarsa öz şəxsi məqsədləri üçün xərcləyə bilər.

Lakin heyvanların verilməsi zamanı məlum oldu ki, vətəndaşlara qısır və balası olmayan inək və qoyunlar, yanıq dana və toğlular təklif edilib. Bu, aztəminatlı vətəndaşları daha da müflis etməkdən başqa bir şey deyil. Başqa sözlə, vətəndaş 20 qısır qoyunu 2 il yemləmək üçün 4 min manat pul xərcləməlidir. Sonda isə həmin qoyunları yalnız 2 min manata sata bilər. Vətəndaş, deməli, 2 min manat ziyan edəcək. Bordaq üçün verilən toğlularla bu gün şəxsən tanış olduq, heç kim götürmədi. Bunlara yanıq toğlular deyilir, 10 kq çəkiləri olardı, ya yox, onlar böyümürlər, nə qədər yem, dava-dərmən verilsə belə elə o boyda qalacaqlar. Ən yaxşısının bazar qiyməti 70 manatdan çox deyil. Özünüməşğulluq proqramı çərçivəsində vətəndaşa belə xəstə heyvanlar təklif edilir. 70 manatdan 20 yanıq toğlunun qiyməti 1400 manat edir. Dövlət isə özünüməşğulluq proqramı çərçivəsində hər vətəndaşa 5 min manat vəd etmişdi..." Qeyd edək ki, özünüməşğulluq proqramının icrası ilə bağlı ƏƏSMN "Aqri Kon" MMC və "Bis Co" MMC konsorsiumunu seçib. 2018-ci ilin iyulunda yaradılan MMC-lərin həmin ilin avqustunda podratçı olaraq qəbul edilmələri əsaslı şübhələr yaradır. Seçim aparılarkən hansı şərtlərin əsas götürüldüyü də bilinmir. Bu haqda ötən saylarımızda daha ətraflı yazmışıq. *(http://musavat.com/news/nazirlik-dovletin-muhum-proyektini-1-ayliq-mmc-lere-tapsirib-sovdelesme-iddiasi_579234.html)*

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**Araşdırmalar göstərir ki, işlə bağlı müraciətdən tutmuş, ev satın almağa, hətta evlənməyə və uşaq sahibi olmağa qədər həyatımızın önəmli hadisələrini ilin bəlli aylarında gerçəkləşdirmək daha sərfəlidir. Bəli, indi yeni ilin gəlişinə sayılı günlər qalıb. "Yeni Müsavat" BBC Türkcəyə istinadən, ilin hansı ayında hansı planı həyata keçirmənin daha əlverişli ola biləcəyi ilə bağlı elmi araşdırmaların nəticələrini ortaya qoyub. Beləlikcə, hansı ayda nə etmək lazımdır?**



# Hansı işi hansı ayda görək?

## Möhtəşəm il tövsiyəsi - aybaay görüləcək işlərin siyahısı

**Yanvar: işlə bağlı müraciət etmənin ən yaxşı vaxtı**

Yeni ilə yeni bir işlə başlamaq üçün yanvarda Google-da işlə bağlı arayışların sayı artır. Amma digər aylarla müqayisədə bu axtarışların çox az hissəsi həqiqi iş müraciətlərinə çevrilir. Bu səbəbdən də yanvar ayı iş müraciəti etmək üçün ən uyğun ay sayılır. Yanvar-iyun arası dövrdə iş müraciətləri, iyul-dekabr arasındakı ilə müqayisədə 14 faiz daha azdır. Bu durum universitet məzuniyyətlərinin əsasən yay aylarında olmasından qaynaqlanır. Beləcə, payızda iş axtaranların sayı artır.

Bundan başqa, yanvar ayında tətildə olanların sayı az olduğu üçün işə götürmə üçün qərar vermə prosedura daha sürətlə işləyir. Şirkətlər o il həyata keçiriləcək yeni layihələr üçün büdcəni də əsasən bu ay dəqiqləşdirmiş olurlar. İllik əlavə maaş, faizlər dekabr ayında həyata keçirildiyi üçün çox insan iş dəyişdirmək üçün yanvar ayını gözləyir. Yəni boş iş yeri faizi bu ay artmış olur.

**Fevral: maşın sığortası üçün ən yaxşı aydır**

İngiltərədə keçirilən araşdırmalar maşın sığortalarının dekabr ayında pik həddə çatdığını göstərir. Qiymətlər yanvar ayında yenidən düşür. Dekabr 2016-cı ildə maşın sığortası orta hesabla 8/12 dollar ikən fevral 2017-ci ildə 685 dollara qədər azalıb. Yəni, dekabrda maşın sığortası yüzdə 15 daha baha başa gəlib.

Dekabr ayında sığorta faizlərinin artması yeni ilə görə daha çox maşının nəqliyyata çıxmasına və soyuq hava şərtlərinə bağlanır. Bu durum qəza riskini artırır.

Ancaq araşdırmalar hansı ay olursa-olsun, öncəki sığorta müddəti bitmədən üç həftə öncə yeniləmənin ən uyğun qiymət almağı təmin edəcəyini göstərir. Sığorta müddəti bitmədən hərəkətə keçmiş olmaq insanın təşkilatçı və tədbirli olmasının əlaməti sayılır. Yeniləməni son dəqiqəyə saxlamaq isə yüksək risk olaraq görülür.

**Mart: evlənmək üçün ən yaxşı ay**

Amerikada evlənmək üçün ən populyar mövsüm payız, İngiltərədə isə yaydır. Bu mövsümlərdə təbii olaraq evlilik mərasimləri də daha baha başa gəlir. Bu səbəbdən də şimal yarımkürəsindəki ölkələrdə yanvar, fevral və ya mart aylarında evlənməklə bağlı toy məsrəfləri azaldıla bilər.

Bu durum büdcədən də artığına təsir edə bilir. Amerikada 3000 cütlüklə keçirilən araşdırmada toy məsrəfi olan cütlüklərin evliliklərinin daha uzun davam etmə ehtimalı olduğu görüldü.

**Aprel: hamilə qalmaq üçün ən yaxşı ay**

Uşaq sahibi olmaq hər bir cütlüyün arzusudur. Bu məsələdəki ən önəmli faktorlardan biri də kişilərin sağlamlıq, aktivlik durumudur. Bunun üçün sperma sağlamlığı və miqdarı önəmli detal sayılır. Bunların ən yüksək səviyyədə özünü göstərdiyi dönəm isə bahar aylarıdır. Amerikada hər 29 min kişi üzərində 17 il boyunca aparılan cinsi aktivlik testləri sübut edib ki, onlar daha çox yaz aylarında pik həddə olurlar.

İsveçrədə 12 min kişi üzərində həyata keçirilən başqa bir araşdırmada isə kişilərin baharda daha aktiv, yayda isə bu göstəricilər üçün passiv olduğu üzə çıxıb.

**May: önəmli qərarlar üçün ən yaxşı ay**

Yanvar ayında cənub yarımkürədə həyata dair önəmli qərarların alındığı bir ay sayılır. Amma araşdırmalar bunun yaxşı bir dönəm olmadığını göstərir. Belə ki, qış aylarında əhalinin 10 faizə yaxını mövsümü depressiyadan əziyyət çəkir.

Əhvalımız pis olanda riskdən qaçma cəhdi güclənir. Ciddi nəticələr doğura biləcək qərarlar baxımdan bu dönəm yaxşı ola bilər. Amma riskdən qaçmaq qərar qəbul etməyi çətinləşdirəcəyi kimi, tərəddüd dolu bu reaksiya da məntiqli olmaya bilir.

Depressiv ruhi halı insanı tərəddüdə və qərarsızlığa sürükləyir və düzgün seçim etməsinə mane olur. Bu səbəbdən də bir çox qərarlar baxımdan bəlkə də günlərin uzandığı və daha pozitiv bir ruh halının olduğu may kimi bir ayı gözləmək daha doğru ola bilər.

**İyun: xəstəxanaya getmək üçün ən yaxşı ay**

Xəstələnmək heç bir zaman yaxşı deyil, əlbəttə... Amma bəzi aylar digərləri ilə müqayisədə daha pis ola bilər. Qış ayları xəstəxanaya getmək üçün ən pis zaman olsa da, iyul və avqust kimi yeni məzun həkimlərin xəstəxanaya axın etdiyi dönəmlərin daha riskli ola biləcəyini göstərən faktlar da var.

İngiltərədə təcili yardım xidməti xaricində vaxt alaraq edilən xəstəxana ziyarətləri və əməliyyatların baş verdiyi aylar noyabr, fevral və martdır. Dünya miqyasında da qış ayları bir çox xəstəliyin pik həddə çatmasına görə insanların xəstəxanalara daha çox gəldiyi aydır. Bunlar arasında soyuqdəymə, astma və infarkt yer alır. Xəstəxanaların yataq potensialı dolduğu üçün boş yataq tapmaq ehtimalı azalır, təcili yardımda isə daha uzun müddət gözləmək lazım gəlir.

Kaliforniyada həyata keçirilən bir araşdırma isə yeni həkimlərin iş həyatına qatıldığı və rolların hələ dəqiqləşmədiyi yay dönəmində qarşısı alına bilən fəsadlara məruz qalma riskinin 90 faiz artdığını ortaya qoyub. Amerikada da universitet xəstəxanalarında iyul-avqust dönəmində əməliyyat olan xəstələrin aprel və iyunla müqayisədə 30 gün içində ölmə riskinin 41 faiz artdığı qeyd edilib.

Həkimlərin dekabr ayında tətilə çıxma ehtimalı artdığı üçün həmin ayda da "iyul təsiri" özünü göstərir. Ona görə də xəstəxanaya getmək üçün ən uyğun ay iyun kimi görünür.

**İyul: imtahan üçün ən uyğun zaman**

Bir çoxumuz imtahana girəcək vaxtı özümüz seçə bilmirik. Amma elə bir şans varsa və imtahanda yüksək diqqət lazımdırsa, yayın ortası ən yaxşı zamandır.

Bir araşdırmada beyin aktivliyi və elmi bacarıqların il ərzində müəyyən bir qrafik üzrə hərəkət etdiyi üzə çıxıb. 28 gənc ilin fərqli zamanlarında testdən keçirildikləri zaman diqqətin ən həssas olduğu dönəmin yay ortası olduğu, qış da isə ən pis səviyyədə olduğu müəyyən edilib.

Amma qısamüddətli yaddaş baxımdan ən yaxşı performans payızda, ən pisi isə baharda özünü göstərir. Günün uzunluğu beynin funksionallığına təsir edir, amma araşdırmaçılar bunun necə işləməsi haqqında böyük məlumata sahib deyillər.

Amma fəsillərlə funksional bacarıqlar arasındakı əlaqəni araşdıran digər araşdırmalarda fərqli nəticələr də əldə edildi. 13-19 yaş arası 182 norveçli gənclə aparılan araşdırmada fəsillərin yaddaş, öyrənmə, reaskiya müddəti və ya problem həll etmə bacarığı üzərində hər hansı bir təsiri olmadığı nəticəsinə gəlinib.

**Avqust: ev almaq üçün ən yaxşı ay**

Amerikada ev satın almaq üçün ən populyar dönəm yaz aylarıdır. Aprel, may və iyunun evlərin satış üçün bazara ən çox girdiyi aylardır. Beləcə, alıcının daha çox seçimi olur. Amma alıcı sayı daha yüksək olduğu üçün ev qiymətləri də artır. Ən yüksək qiymətlər aprel ayında özünü göstərir.

Amerikanın 50 böyük şəhərində 2014-2016-cı illərdə ev qiymətləri araşdırılanda ən aşağı qiymətlərin yanvar və fevral aylarında olduğu görünüb. Amma bunda evin böyüklüyü və ya keyfiyyəti kimi başqa təsirlərin ola biləcəyi də qeyd edilir.

Mütəxəssislər qiymətlərin daha aşağı olması və variantların çoxluğu səbəbindən satın alacaq evə baxmaq üçün ən uyğun zamanın avqust və sentyabr ayları olduğunu deyir.

**Sentyabr: doğulmaq üçün ən yaxşı ay**

Doğum günümüzü seçmə şansımız yoxdur. Amma qadınlar hamiləliyini ən incə detalına qədər düşünürsə, sentyabrda uşaq dünyaya gətirəcək şəkildə plan qura bilər. Çünki ad günü sentyabrda olan insanlar daha şanslıdılar.

Araşdırmaçılar sentyabrda dünyaya gələn uşaqların imtahanlarda daha çox uğur qazandığını və ən yaxşı universitetlərə daxil olma şanslarının daha yüksək olduğunu göstərir.

Amerikada 100 yaş və ondan böyük 1600 nəfərlə aparılan araşdırma sentyabr-noyabr ayları arasında dünyaya gələn insanların 100 yaşına qədər yaşamaq şansının artdığını və irəliləyən yaşlarda ürək xəstəlikləri, diabet də daxil olmaq üzrə daha az sağlamlıq problemləri yaşadığını ortaya qoyur.

**Noyabr: pasport, viza üçün ən yaxşı ay**

İlk pasport və ya yeniləmə məqsədli müraciətlərə tələb artan zaman bu prosedur daha çox vaxt alır. Amerika və İngiltərədən alınan məlumatlara görə, noyabr və dekabr aylarında daha az sayda müraciət edildiyini göstərir. Yay tətili hazırlıqları tez başladığı üçün rəqəmlər yanvar ayında artım göstərir.

**Dekabr: birjalarda səhm almaq üçün ən yaxşı ay**

Səhm sənədlərinin may-dekabr ayları arasında daha zəif performans göstərdiyi, noyabr-aprel arasında isə gücləndiyinə dair geniş yayılan bir fikir var. Bu inanca görə, baharda səhmləri satmaq, dəyərləri yüksəlməyə başlamadan öncə, payızda da satın almaq lazımdır.

1998-ci ildə həyata keçirilən və yüz illər öncəsinə qədər uzanan bir araşdırma bu inancın bazarda özünü doğrultduğunu göstərib. Qışın sonunda bazarlar normala döndüyü zaman bu səhmlərin faydası da yüksək olur.

Amma səhmlərə təkcə mövsümi dəyişikliklər təsir etmir. Yanvar ayının təsiri, tətilin təsiri, ay sonu təsiri və sair kimi təsirlər də kiçikmiqyaslı səhmlər üzərində özünü göstərir. Bu səbəbdən də buradakı məlumatlar səhm alqı-satqısı məsələsində tövsiyə kimi daha təsirli olmaya bilər.

Əvvəllər Amerikada maşın satışları mart və may aylarında zirvədə olurdu. Amma 2009-cu ildən bu yana dekabr ayı qabağa keçib. Bu ay maşın satışları aylıq satış faizindən 13 faiz artıqdır.

Bunda il sonu endirimlərinin payı olduğunu düşünənlər var. Amma Amerikada maşın satışı firmaları hədəflərini gerçəkləşdirmək və yeni maşınları satışa çıxarmaq üçün ilin sonuna doğru qiymətlərdə endirimə gedir. Bu endirimlər istehsalçının tövsiyyə etdiyi qiymətdən orta hesabla 6.1 faiz daha ucuz olur.

**Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 277 (7166) 25 dekabr 2018



# Ölünü yandırmaq istəyirdilər, dirildi

Hindistanın Racastan ştatı Bxilvar şəhər sakininin başına gələn iş dünyanı gülüşə boğub. Öldüyü təxmin edilən, kremasiya məqsədilə yandırmağa hazırlaşdıqları kişi son anda dirilib. 72 yaşlı Dipak Sinqx evinin həyətində inəkləri otaranda özünü itirib. Hadisə yerinə gələn həkimlər onun ölümünü təsdiqləyiblər. Sinqx gözünü açanda isə artıq kremasiya mərasimi başlamışdı və onun qohumları ənənəvi mahnılarını oxuyurdular. Nəvəsi Banda Nalvanın sözlərinə görə, mahnının səsi yüksəlincə Sinqx qımıldanmağa başlayıb, sonra gözlərini açıb və oturub. Bundan sonra qohumları ona yerə düşməyə kömək ediblər. "Ümid edirəm ki, qohumlarım mənim növbəti dəfə, amma həqiqi ölümümü gözləyə biləcəklər. Ancaq ondan sonra məni yandırmaq haqda düşünərlər". Bunu da Dipak Sinqx bildirib. Ocaqda bədənlərin yandırılması ənənəsi industlar üçün çoxdan bəri ənənəyə çevrilib. Bu, xüsusən Qanq və Varanasi sahillərində gerçəkləşdirilir.

# Lotereya udan amerikalı həbs olundu

**Amerikanın Nyu-Cersi ştatındakı Cersi-Siti şəhərində iki böyük lotereya udan amerikalı həbs olunub. Bu barədə lenta.ru saytı məlumat verib. Polis 53 yaşlı Ceyms Kallahanı yol hərəkət qaydalarını pozduğu üçün saxlayıb. Onun maşınında resept əsasında alınmış 350 tablet, eləcə də avtomatik silah tapılıb. Bu isə Kallahanın evində axtarış aparılması üçün əsas olub. Axtarış zamanı məlum olub ki, kişinin evində resept əsasında alınan dərmanlarla yanaşı, kokain və marixuana, eləcə də Nyu-Cersidə saxlanılması qadağan olunan silah və mərmi tapılıb.**



2015-ci ilin noyabrında, həmin vaxt tikintidə çalışan Kallahan lotereyada 700 min dollar udub. Tam bir il sonra eyni lotereya oyununda o, yenə də böyük məbləğdə pul qazanıb. Mart ayında xəbər verilmişdi ki, lotereyada 19 milyon dollar udan amerikan narkotikə qurşanıb, bütün pullarını xərcləyib və qarajda yaşamağa başlayıb. 2017-ci ildə o, banka 11 dəfə hücum edib, 40 min dollar oğurlayıb və nəticədə türməyə düşüb.

# 40 min avro pulu kanalizasiyaya atdılar



**İsveçrənin Cenevrə kantonunda prokurorluq iki qadının on minlərlə avro pulu niyə kanalizasiyaya atmasının səbəbini tapa bilməyib. İstintaqın bitməsindən sonra pullar onları tapan insanlara verilə bilər.**

11 may 2017-ci ildə İsveçrənin Cenevrə şəhərindəki banklardan birində kanalizasiya xətləri tutulub. Borulardan ümumilikdə 40 min avro məbləğində pul çıxıb. Eyni gündə qonşuluqdakı şirniyyat fabrikinin işçiləri də ayaqyolunda 8.5 min avro tapıblar. Həmin gün axşam saatlarında qonşuluqdakı kafenin unitazından xadimə 20 min avro çıxarıb. Bir ay sonra isə pizza restoranının tualetindən 40 min avro çıxıb.

Bu pulların mənbəyi hüquq-mühafizə orqanlarını da maraqlandırıb. "Bu gün üçün məlum olur ki, milliyyətcə ispan olan iki qadın bu pulları ayaqyoluna atıb", - bu barədə 2017-ci ilin sentyabrında Cenevrə kontonu prokurorluğunun mətbuat xidmətinin rəhbəri məlumat verib. Onun dediyinə görə, özlüyündə pulun bu formada kanalizasiyaya atılması cinayət deyil. Amma bununla belə, kanalizasiyada olan pulların qeyri-qanuni yollarla əldə edildiyi aşkarlansa, qadınları məsuliyyətə cəlb edə bilərlər.

Hadisədən il yarım keçəndən sonra Cenevrə kontonu istintaqın yekunlaşması ilə bağlı elan verib. Hüquq-mühafizə orqanları on minlərlə avro vəsaitin niyə kanalizasiyada olmasını aydınlaşdıra bilməyib. Eyni zamanda pulu ora atanlara qarşı hər hansı cinayət işi açılmasına da əsas tapılmayıb. Bu müddətdə polisdə saxlanılan pulları onu tapan şəxslər götürə biləcək.




**QOÇ** - Yeni əlaqə və tanışlıq üçün ideal ərəfədir. Bu gün ailə-sevgi münasibətləri də qaydasına düşəcək. Amma xarakterinizdən gələn "bircə anda hər şeyi alt-üst etmək" metodundan uzaq olun.

**BUĞA** - Kifayət qədər məhsuldar gündür. Bu səbəbdən də bütün gücünüzü fəaliyyət istiqamətinə yönəltməlisiniz. Sağlıq durumunuzu nəzarətdə saxlayın. Günorta təzə xəbərlər eşidəcəksiniz.

**ƏKİZLƏR** - Böyük dəyişikliklər astanasındasınız. Amma yüz dəfələrlə ölçüb-biçməlisiniz ki, seçimdə yanılmayasınız. Çünki yaxın gələcəyiniz indiki addımlarınızdan birbaşa asılıdır.

**XƏRÇƏNG** - Anlaşılmaz bir gün yaşayacaqsınız. Sanki mistik məxluqlar ətrafınızda dolaşmaqdadır. Bəzən su içmək kimi asan olan bir işiniz daşdan keçir. Bəlkə günahı özünüzdə axtarasınız?!

**ŞİR** - Bütün astroloji göstəricilər bu gözəl gündə şəxsi büdcənizin artacağından xəbər verir. Deməli, digər işləri ikinci plana salıb əsas diqqətinizi pul amilinə yönəltməlisiniz. Amma sağlığınızı da qoruyun.

**QIZ** - Müəyyən gərginliklə baş-başa qalacağınız mümkündür. Bir tərəfdən müsahiblərinizin sizi anlamaması, digər tərəfdənsə daxili orqanlarınızın nasazlığı əsəblərinizi tarıma çəkə bilər.

**TƏRƏZİ** - Həmkarlarınızla münasibətləri hədəqəsindən çıxarmasanız, ixtiyarınızda olan bu təqvimdən narazı qalmayacaqsınız. Saat 15-17 arası işgüzar görüşləriniz gözlənilir. Bütün hallarda təşəbbüskarlığı əldə saxlayın.

**ƏQRƏB** - Nigarançılığa heç bir əsas yoxdur. Əgər özünüz kimisə aldatmasanız, sizə qarşı belə bir hal baş verməyəcək. Ulduzlar nahardan sonra yeni təkliflər alacağınızdan xəbər verir. İmtina etməyin.

**OXATAN** - Saat 13-ə qədər və 18-dən sonra ümumi vəziyyətiniz yaxşı olacaq. Qalan müddətdə isə sizi hiddətləndirə bilən hadisələr mümkündür. Bu səbəbdən də gün ərzində hər adamla ünsiyyət qurmayın.

**OĞLAQ** - Bəxtinizdə olduqca rəvan bir gün durur. Ələlxüsus da saat 13-dən başlayaraq rastlaşdığınız hadisələr ovqatınızı yüksəldəcək. Aldığınız təkliflərdən qətiyyən imtina etməyin.

**SUTÖKƏN** - Nədənsə hadisələri qabaqlamaq, iştirakçısı olduğunuz proseslərin nəticələrinə tez-tələsik nail olmaq istəyirsiniz. Amma unutmaq olmaz ki, səbr və təmkin insanın ən böyük xilaskarıdır.

**BALIQLAR** - Münasibətlər zəminində olduqca neqativ gündür. Odur ki, istənilən ciddi söhbətdən uzaqlaşın. Risk və sövdələşmələrə isə qətiyyən baş qoşmayın. Yalnız səfərlə bağlı uğurlarınız var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Sunami səhnədə konsert verən qrupu "yudu"



İndoneziyada sunami səhnədə çıxış edən zaman yerli rok qrup Seventeen-i "yuyub". Sunaminin musiqiçiləri necə pərişan etməsi konsertdən hazırlanan videoçəkilişlərdə yer alıb. Kadrlardan görünür ki, qrupun solisti mikrofona "We are Seventeen" (Biz "Seventeen"ik) deyə qışqırır, növbəti saniyədə isə sunami arxa divarı aşırır. İndoneziyada sunami 22 dekabrda baş verib. Hazırda bu təbii fəlakət nəticəsində 62 nəfərin ölməsi, 584 nəfərin zərər çəkməsi ilə bağlı məlumat var. İki nəfər isə itib. Yüzlərlə bina çöküb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100